Rəsmi dövlət qəzeti

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 156 (8179) ŞƏNBƏ, 20 iyul 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



# Azərbaycan və Türkiyə prezidentləri ikitərəfli münasibətləri müzakirə ediblər



İyulun 19-da Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng edib.

Telefon söhbəti zamanı dövlət başçıları ikitərəfli münasibətləri və qarşılıqlı maraq doğuran məsələləri müzakirə ediblər.

***Prezidentin Mətbuat Xidməti***

# Azərbaycan ilə Səudiyyə Ərəbistanı ədliyyə və məhkəmə orqanları arasında əməkdaşlıq üçün yaxşı imkanlar var



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 19-da Səudiyyə Ərəbistanı Krallığının Ədliyyə naziri Vəlid bin Məhəmməd Əl-Səmaaninin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev ölkələrimizin ədliyyə və məhkəmə orqanları arasında əməkdaşlığın genişləndirilməsi üçün yaxşı imkanların olduğunu dedi və Səudiyyə Ərəbistanı Krallığının Ədliyyə naziri Vəlid bin Məhəmməd Əl-Səmaaninin Azərbaycana səfərinin bu əlaqələrin inkişafına öz töhfəsini verəcəyinə əminliyini ifadə etdi. Xalqlarımız arasında münasibətlərə toxunan Prezident İlham Əliyev Səudiyyə Ərəbistanı Krallığından Azərbaycana gələn turistlərin sayının daim artmasını bu münasibətlərin yaxşı göstəricisi kimi dəyərləndirdi.

Səudiyyə Ərəbistanı Krallığının Ədliyyə naziri Vəlid bin Məhəmməd Əl-Səmaani, ilk növbədə, İki Müqəddəs Ocağın Xadimi, Səudiyyə Ərəbistanının Kralı Salman bin Əbdüləziz Al Səudun və Səudiyyə Ərəbistanı Krallığının Vəliəhdi Məhəmməd bin Salman bin Əbdüləziz Al Səudun salamlarını dövlətimizin başçısına və Azərbaycan xalqına çatdırdı. Qonaq vurğuladı ki, İki Müqəddəs Ocağın Xadimi, Səudiyyə Ərəbistanının Kralı Salman bin Əbdüləziz Al Səud Azərbaycanla əlaqələrin yüksək səviyyədə olduğunu bildirib və bu əlaqələrin daha da inkişaf etdirilməsi əzmini ifadə edib. Vəlid bin Məhəmməd Əl-Səmaani paytaxtımızda gördüyü inkişaf proseslərinin dərin təəssürat yaratdığını qeyd etdi. O, Bakıda azərbaycanlı həmkarları ilə görüşlərin uğurla keçdiyini, Azərbaycanın ədliyyə sistemi sahəsində əldə olunan yeniliklərin maraq doğurduğunu dedi.

Prezident İlham Əliyev İki Müqəddəs Ocağın Xadimi, Səudiyyə Ərəbistanının Kralı Salman bin Əbdüləziz Al Səudun və Vəliəhd Məhəmməd bin Salman bin Əbdüləziz Al Səudun salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Səudiyyə Ərəbistanının Kralına və Vəliəhdinə çatdırmağı xahiş etdi.

Söhbət zamanı ikitərəfli münasibətlərin müxtəlif aspektləri müzakirə edildi.

# Qarşılıqlı səfərlər iki ölkə arasında əlaqələrin genişlənməsi işinə töhfə verəcək



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 19-da Qətərin Bələdiyyə və Ətraf Mühit naziri Abdullah bin Abdulaziz bin Turki Al-Subaieni qəbul edib.

AZƏRTAC xəbər verir ki, nazir Abdullah bin Abdulaziz bin Turki Al-Subaie Qətər Dövlətinin Əmiri Şeyx Təmim bin Həməd Al Taninin salamlarını dövlətimizin başçına çatdırdı. O, Azərbaycanda müvafiq qurumların rəhbərləri ilə müxtəlif istiqamətlərdə əməkdaşlığın perspektivləri barədə səmərəli müzakirələrin aparıldığını diqqətə çatdırdı.

Dövlət başçısı Qətər Dövlətinin Əmiri Şeyx Təmim bin Həməd Al Taninin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Qətər Dövlətinin Əmirinə çatdırmağı xahiş etdi. Prezident İlham Əliyev Qətərin Bələdiyyə və Ətraf Mühit naziri Abdullah bin Abdulaziz bin Turki Al-Subaienin Azərbaycana səfərinin iki ölkə arasında əlaqələrin genişlənməsi işinə töhfə verəcəyinə əmin olduğunu bildirdi.

Söhbət zamanı ekologiya, kənd təsərrüfatı, ərzaq təhlükəsizliyi və digər sahələrdə əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.



# İqtisadi müstəqillik - innovativ inkişaf, ən islahatçı ölkə

## İlham Əliyevin dərin sosial-iqtisadi islahatları ilə Azərbaycan hər il beynəlxalq reytinq təşkilatlarının hesabatlarında yeni rekordlar göstərir

İstənilən ölkədə iqtisadi azadlıq mövcuddursa, dövlət xarici güc və amillərdən asılı olmayaraq xalqın layiqli yaşayışını təmin edə bilir, maddi və mənəvi ehtiyatlarını qorumağa qadir olur. Məhz ölkənin iqtisadi azadlığı şəraitində azad iqtisadiyyat, yəni fəaliyyəti kənar qüvvələrin təsirinə məruz qalmayan sağlam və sərbəst rəqabətə əsaslanan iqtisadiyyat mümkündür. Bu gün Azərbaycanın da adı həmin ölkələr sırasında çəkilir.

ABŞ-ın tanınmış "The Heritage Foundation" analitik mərkəzi tərəfindən hazırlanan "İqtisadi Azadlıq İndeksi-2019"da Azərbaycanın ən böyük irəliləyiş edən ölkə kimi təqdim olunması bunun əyani təsdiqidir.

Bu gün Azərbaycanda mövcud olan iqtisadi müstəqillik siyasi müstəqilliyin və genişmiqyaslı inkişafın təminatçısıdır desək, yanılmarıq. Prezident İlham Əliyevin 2003-cü ildən bugünədək nümayiş etdirdiyi siyasi iradəyə uyğun olaraq ölkəmizdə güclü iqtisadi inkişaf, iqtisadi müstəqillik dərin məzmunlu sosial siyasətlə tamamlanır. Son illərdə isə aparılan islahatlar daha da dərinləşib və mahiyyətcə yeni xarakter kəsb edib.

İqtisadi islahatlar nəticəsində ölkədə maliyyə sabitliyi və iqtisadi artım yaranıb, bir çox sahələrdə, xüsusilə kənd təsərrüfatı, qeyri-neft sənayesi və digər sektorlarda əhəmiyyətli irəliləyiş əldə edilib. Dövlət başçısı tərəfindən ölkədə sahibkarlığa dəstək məqsədilə biznesin bütün sahələri, xüsusilə biznesə başlama, tikinti üçün icazələrin alınması, elektrik təchizatı şəbəkələrinə qoşulma, maliyyə mənbələrinə çıxış imkanlarının artırılması, vergilərin ödənilməsi, əmlakın qeydiyyatı, xarici ticarətin aparılması üzrə əhəmiyyətli irəliləyiş baş verib. Dövlət-biznes tərəfdaşlığında qarşılıqlı inam daha da artıb, bu münasibətlər gələcək iqtisadi inkişafın təməl prinsipinə çevrilib.

İqtisadi və sosial islahatlar paralel şəkildə aparılır, infrastruktur quruculuğu davam etdirilir, regional əhəmiyyətli neft-qaz, rəqəmsal və nəqliyyat-logistika layihələri həyata keçirilir. Artıq nəticələr də göz qabağındadır. Ölkə iqtisadiyyatı 3 faizdən illik böyümə fazasına keçib, xüsusilə qeyri-neft sənayesi, bitkiçilik və qeyri-neft ixracı ikirəqəmli həddə böyüyür. Dövlət büdcəsi və tədiyyə balansında trendlər müsbətdir. Strateji valyuta ehtiyatları ÜDM-in 80 faizindən artığını təşkil etdiyi halda, xarici borc ÜDM-in 20 faizindən də azdır. Manatın məzənnə sabitliyi və inflyasiyanın aşağı həddi təmin edilib. Təkcə builki sosial paket çərçivəsində 4 milyondan çox vətəndaşın sosial rifah halını yaxşılaşdırmaq üçün 4 milyard manatdan artıq vəsait ayrılıb.

Bütün bu islahatlar təbii ki, beynəlxalq reytinq təşkilatlarının hər il açıqladıqları hesabatlarda da öz əksini tapır. Azərbaycan ildən-ilə hesabatlarda mövqeyini yaxşılaşdıraraq bir çox böyük dövlətləri arxada qoyur.

Son bir neçə ildə hazırlanan beynəlxalq hesabatlara nəzər yetirsək bunu aydın şəkildə görərik. Məsələn, əgər Azərbaycan Dünya Bankı tərəfindən hazırlanan "Doing Business 2017" hesabatında 65-ci pillədə qərarlaşmışdısa, bir il sonra "Doing Business 2018" hesabatında 8 pillə yüksələrək 57-ci yeri tutdu. 190 ölkənin biznes mühitini qiymətləndirən hesabata əsasən, Azərbaycan Avropa və Mərkəzi Asiya regionu üzrə ən islahatçı 3 ölkədən biri sayılırdı.

"Doing Business 2019" hesabatında isə Azərbaycan dünyanın 10 ən islahatçı dövləti siyahısına daxil edilərək ən çox islahat aparan ölkə elan olundu. Yeni hesabatda Azərbaycanın mövqeyi 2017-ci illə müqayisədə 32 pillə irəliləyərək 190 ölkə arasında 25-ci yerdə qərarlaşdı. Bununla da dünyanın bir çox ölkələrini geridə qoymaqla MDB ölkələri arasında lider mövqeyə yüksəldi.

Hesabatda deyilirdi ki, Avropa və Mərkəzi Asiya bölgəsinə daxil olan Azərbaycan ən yaxşı təkmilləşdirmə göstəricilərinə malik 10 ölkə arasında və qlobal səviyyədə rekorda nail olaraq səkkiz sahə üzrə islahatlar aparmaqla, 2017-2018-ci illərdə biznes fəaliyyətinin daha da asanlaşdırılmasını təmin edib.

Onu da vurğulayaq ki, "Doing Business" komandası ölkələr üzrə aparılan islahatları həm dövlət, həm də çoxsaylı biznes nümayəndələrindən, habelə məşhur konsaltinq şirkətlərindən toplanan sorğulara verilən cavablar əsasında qiymətləndirir. Aparılan islahatların dəqiqləşdirilməsi məqsədilə ölkələrə ayrı-ayrılıqda xüsusi ekspert missiyaları göndərilir, islahatların real praktikada tətbiqi yerində müvafiq meyarlarla araşdırılır. Nəticədə hər bir ölkənin həm ümumi, həm də 10 indikator üzrə xüsusi qiymət balı hesablanaraq mövqeləri müəyyən edilir.

*Ardı 2-ci səh.*

"Əsrin müqaviləsi" - 25

# Çoxmərhələli layihə

## Qarşıda duran vəzifələrin yerinə yetirilməsinə Məcburi İşlərin Minimum Proqramından başlandı

1994-cü il sentyabrın 20-si Azərbaycanın tarixinə şanlı günlərdən biri kimi yazıldı. Həmin gün Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (SOCAR) Xəzər dənizinin Azərbaycan sektorundakı üç mühüm karbohidrogen mənbəyi - "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin tammiqyaslı işlənməsi üçün altı ölkəni təmsil edən 11 neft şirkətindən ibarət konsorsiumla Hasilatın Pay Bölgüsü Sazişi (HPBS) imzaladı.

*Ardı 3-cü səh.*



XV Avropa Gənclər Yay Olimpiya Festivalı

# Avropa idmanının nəbzi Bakıda döyünür



Sabah Bakıda başlanacaq Avropa Gənclərinin XV Yay Olimpiya Festivalı bütün qitəni birləşdirən tarixi idman bayramıdır. Bu, Azərbaycanın inkişafına, sabitliyə, dünya idmanı və Olimpiya hərəkatının liderlərindən biri olmasına verilən növbəti qiymətdir.

Ümumiyyətlə, bu gün öz inkişafına görə Cənubi Qafqazın lider ölkəsinə çevrilən Azərbaycan, eyni zamanda dünyada aparıcı idman ölkələrindən biri kimi tanınır. Lakin buna heç də asanlıqla nail olunmayıb.

Bu uğurun mərkəzində Azərbaycanda gənclərin dövlət tərəfindən hərtərəfli qayğı ilə əhatə olunması, həmçinin gənc nəslin fiziki və mənəvi cəhətdən sağlam böyüməsi üçün atılan addımlar dayanır.

Azərbaycanda idmana olan dövlət qayğısı, bunun nəticəsində idmançılarımızın olimpiadalarda, müxtəlif səviyyəli beynəlxalq yarışlarda qazandıqları böyük nailiyyətlər, paytaxtla yanaşı, respublikanın hər yerində müasir idman infrastrukturunun yaradılması gənc nəslin həm fiziki, həm də mənəvi cəhətdən sağlam yetişməsində də mühüm rol oynayır.

*Ardı 5-ci səh.*

## Akademik Məmmədağa Şirəliyevin 110 illiyinin qeyd edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

2019-cu ilin sentyabr ayında görkəmli dilçi alim, Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü, Dövlət mükafatı laureatı, Əməkdar elm xadimi, filologiya elmləri doktoru, professor Məmmədağa Şirəli oğlu Şirəliyevin anadan olmasının 110 illiyi tamam olur.

Akademik Məmmədağa Şirəliyev mühüm elmi əhəmiyyətə malik sanballı tədqiqatları ilə Azərbaycan dilçiliyini zənginləşdirmiş, onun bir çox istiqamətlərinin müəyyənləşməsi və formalaşmasında təqdirəlayiq xidmətlər göstərmişdir. Alimin dilçiliyin aktual problemlərinin öyrənilməsində, xüsusən Azərbaycan dialektologiyasının əsaslarının yaradılmasında və türkoloji dilçilik sahəsində ardıcıl nailiyyətlər qazanılmasında müstəsna rolu vardır. Azərbaycan dilinin ilk dialektoloji atlası və lüğətlərinin tərtibi Məmmədağa Şirəliyevin adı ilə bağlıdır. SSRİ Elmlər Akademiyasının Bakıda iyirmi ilə yaxın bir dövr ərzində Məmmədağa Şirəliyevin rəhbərliyi altında işıq üzü görən “Sovetskaya tyurkoloqiya” jurnalı bu səpkidə yeganə nüfuzlu nəşr olub, beynəlxalq elm məkanında dünya türkoloqlarının mötəbər tribunasına çevrilmişdir. Alim respublikada və onun hüdudlarından kənarda filoloqların yeni nəslinin müasir elmi-nəzəri biliklərə dərindən yiyələnməsi üçün var qüvvəsini əsirgəməyərək uzun illər ali təhsil ocaqlarında dilçilik kursu üzrə mühazirələr oxumuş, həmçinin yüksəkixtisaslı dilçi kadrların hazırlanması işinə böyük əmək sərf etmişdir. Məmmədağa Şirəliyev, eyni zamanda, mövcud elmi potensialdan daim ölkənin və xalqın mənafelərinə uyğun səmərəli istifadə olunmasına çalışan bacarıqlı elm təşkilatçısı kimi tanınırdı.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, ölkədə dilçilik elminin inkişafına qiymətli töhfələr vermiş görkəmli alim Məmmədağa Şirəliyevin anadan olmasının 110-cu ildönümünün qeyd olunmasını təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Milli Elmlər Akademiyası Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə birlikdə akademik Məmmədağa Şirəliyevin 110 illiyinə dair tədbirlər planını hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 19 iyul 2019-cu il*

## Ağstafa Rayon Məhkəməsinin sədri İ.Y.Əliyevin vəzifəsinin dəyişdirilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 9-cu və 32-ci bəndlərini, habelə “Məhkəmələr və hakimlər haqqında” Azərbaycan Respublikası Qanununun 94-cü maddəsini və 97-ci maddəsinin ikinci hissəsini rəhbər tutaraq **qərara alıram:**

1. İlqar Yadulla oğlu Əliyev Ağstafa Rayon Məhkəməsinin hakimi və sədri vəzifəsindən azad edilərək Xocavənd Rayon Məhkəməsinin hakimi və sədri təyin edilsin.

2. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 19 iyul 2019-cu il*

## Tərtər Rayon Məhkəməsinin hakimi M.S.Məmmədovun səlahiyyətlərinə vaxtından əvvəl xitam verilməsi və bəzi birinci instansiya məhkəmələri hakimlərinin iş yerlərinin dəyişdirilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 9-cu və 32-ci bəndlərini rəhbər tutaraq **qərara alıram:**

1. “Məhkəmələr və hakimlər haqqında” Azərbaycan Respublikası Qanununun 113-cü və 114-cü maddələrinə uyğun olaraq, Tərtər Rayon Məhkəməsinin hakimi Mübariz Sərxoş oğlu Məmmədovun səlahiyyətlərinə vaxtından əvvəl xitam verilsin.

2. “Məhkəmələr və hakimlər haqqında” Azərbaycan Respublikası Qanununun 94-cü və 112-ci maddələrinə uyğun olaraq, aşağıdakı hakimlərin iş yerləri dəyişdirilsin:

2.1. Yaşar Xanoğlan oğlu Həşimov Gəncə şəhəri Kəpəz Rayon Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Füzuli Rayon Məhkəməsinin hakimi təyin edilsin;

2.2. Zamin Cəbrayıl oğlu Tahirov Quba Rayon Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Balakən Rayon Məhkəməsinin hakimi təyin edilsin.

3. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 19 iyul 2019-cu il*

## Azərbaycan ilə ABŞ arasında əlaqələr NATO proqramları çərçivəsində və ikitərəfli əsasda qurulub



İyulun 19-da Azərbaycan Respublikasının Müdafiə naziri, general-polkovnik Zakir Həsənov Amerika Birləşmiş Ştatlarının ölkəmizdəki səfiri Örl Litzenberqer ilə görüşüb.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə general-polkovnik Zakir Həsənov Azərbaycan ilə ABŞ arasında əlaqələrin NATO proqramları çərçivəsində və ikitərəfli əsasda qurulduğunu qeyd edərək hərbi, hərbi-texniki və hərbi təhsil sahələrində əməkdaşlığın inkişafının vacibliyini diqqətə çatdırıb.

Regiondakı hərbi-siyasi vəziyyətə toxunan nazir Ermənistanın işğalçılıq siyasətinin davam etdiyini, ATƏT-in Minsk qrupunun həmsədrlərinin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı səylərinə baxmayaraq, sülh danışıqlarının rəsmi Yerevan tərəfindən qəsdən yubadıldığını vurğulayıb.

Ö.Litzenberqer də ABŞ-ın Azərbaycanın ərazi bütövlüyünü tanıdığını və ona hörmətlə yanaşdığını qeyd edib. O, ölkəsinin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinin tərəfdarı olduğunu, bunun Cənubi Qafqaz regionunun inkişafının və təhlükəsizliyinin təmin edilməsi baxımından vacibliyini bildirib.

Sonra regional və ikitərəfli əməkdaşlıq, Xəzər dənizi və mühüm enerji infrastrukturunun təhlükəsizliyi, kütləvi qırğın silahlarının yayılmasına qarşı mübarizə, hər iki ölkənin hərbi təhsil üzrə mütəxəssislərinin qarşılıqlı səfərləri, həmçinin maraq doğuran bir sıra digər məsələlər müzakirə olunub.

Səfir Ö.Litzenberqer ABŞ-ın Azərbaycana yeni təyin olunan hərbi attaşesi, polkovnik Terri Həmriki Müdafiə nazirinə təqdim edib.

Nazir yeni təyin olunan hərbi attaşeni Azərbaycanda fəaliyyətə başlaması münasibətilə təbrik edərək ölkələrimiz arasında hərbi əməkdaşlığın genişləndirilməsi sahəsində gələcək fəaliyyətində ona uğurlar arzulayıb.

## Azərbaycan üçün vacib olan əhalinin siyahıya alınması yüksək səviyyədə baş tutacaq





İyulun 19-da Nazirlər Kabinetində Əhalinin Siyahıyaalınmasına Yardım üzrə Mərkəzi Komissiyanın növbəti geniş tərkibli iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, Baş Nazirin müavini, komissiyanın sədri Əli Həsənovun yanında keçirilən iclasda yerlərdə əhalinin siyahıyaalınmasına yardım komissiyalarının sədrləri olan rayon, şəhər və şəhər rayonlarının icra hakimiyyəti başçılarının müavinləri, müvafiq dövlət qurumlarının rəhbərləri və nümayəndələri iştirak ediblər.

Baş Nazirin müavini Əli Həsənov bildirib ki, əhalinin siyahıyaalınması Prezident İlham Əliyevin 2016-cı ildə imzaladığı “2019-cu ildə Azərbaycan Respublikasında əhalinin siyahıyaalınmasının keçirilməsi haqqında” Fərmana uyğun aparılır. Nazirlər Kabinetinin 2016-cı il 16 dekabr tarixli qərarı ilə yaradılan komissiyanın bugünkü geniş iclasının keçirilməsində əsas məqsəd siyahıyaalma prosesini ətraflı müzakirə etmək, hazırlıq işlərini nəzərdən keçirməkdir. Komissiya sədri əminliyini ifadə edib ki, ölkəmiz üçün vacib olan bu proses yüksək səviyyədə baş tutacaq. Bu proses əhalinin sayı, yerləşməsi, miqrasiyası və tərkibi, habelə müəyyən bir dövr üzrə vacib olan xüsusiyyətləri barədə ətraflı və müntəzəm məlumatlara olan ehtiyacla şərtlənir. Eyni zamanda, bu proses dövlətin vahid statistik metodologiyası əsasında həyata keçirilir və cəmiyyətdəki vəziyyət haqqında, onun iqtisadiyyatı, sosial sahəsi, mənəvi dəyərləri və sair barədə mühakimə yürütməyə imkan verir. Siyahıyaalma ölkənin həyatında mühüm bir tədbirdir və onun müvəffəqiyyətlə keçirilməsində bu prosesdə iştirak edən hər bir şəxsin üzərinə böyük məsuliyyət düşür.

İclasda bildirilib ki, siyahıyaalma prosesinə 43 min insan cəlb olunacaq. Artıq siyahıyaalma materialları hazırdır. Əhalinin sayına uyğun sorğu vərəqələri çap edilib. 28 bənddən ibarət sorğu vərəqələrində 46 sual üzrə 280-ə yaxın göstərici yer alıb. Əhalinin bu sorğulara tam, dolğun cavab verməsi mühüm əhəmiyyət kəsb edir. Bu prosesin əhaliyə geniş şəkildə çatdırılması üçün KİV-in üzərinə böyük vəzifə düşür.

Sonra komissiyanın sədr müavini - Dövlət Statistika Komitəsinin sədri Tahir Budaqov, komissiyanın üzvləri - Bakı Şəhər İcra Hakimiyyəti başçısının müavini Fidumə Hüseynova, Xarici İşlər nazirinin müavini Nadir Hüseynov və Daxili İşlər nazirinin müavini İsmət Əliyev hazırlıq prosesi ilə bağlı ətraflı məlumat veriblər.

İclasın sonunda müvafiq dövlət qurumlarına aidiyyəti üzrə tapşırıqlar verilib.

Qeyd edək ki, Azərbaycan qanunvericiliyinə görə hər 10 ildən bir baş tutan əhalinin siyahıya alınması prosesi növbəti dəfə 2019-cu ilin 1-10 oktyabr tarixlərində keçiriləcək.

## *Elmar MƏMMƏDYAROV:* “Təşəbbüskarı olduğumuz layihələr Avropa ilə Asiya arasında əlaqələrin genişlənməsinə töhfə verəcək”

Azərbaycan Respublikasının Xarici İşlər naziri Elmar Məmmədyarov “Xəzər hövzəsində və ətrafında enerji balansı siyasəti” mövzusunda ADA Universitetində keçirilən 13-cü illik Bakı Yay Enerji Məktəbində çıxış edib. Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, E.Məmmədyarov ənənəvi tədbirin əhəmiyyətini yüksək qiymətləndirərək enerji təhlükəsizliyinin Azərbaycan üçün əhəmiyyəti və regional siyasətin balanslaşdırılmasına töhfəsindən danışıb.

Nazir qeyd edib ki, bizim üçün enerji təhlükəsizliyi karbohidrogen ehtiyatlarının hasilatı, onları istehsal etmək və bazarlara nəql etmək üçün davamlılıq nümayiş etdirmək və bütün risklərə tab gətirmək qabiliyyətidir. E.Məmmədyarov bu baxımdan enerji təhlükəsizliyinin bir neçə faktordan asılı olduğunu vurğulayaraq deyib ki, enerji təhlükəsizliyi yalnız boru kəmərlərində baş vermir. Əslində, bu, geologiyadan başlayır. Əgər biz hətta boru kəmərləri çəkməmişdən əvvəl, yuxarı axında balanslı, davamlı və səmərəli layihələri təmin edə bilməyəcəyiksə, bizim istehsal etməyimiz və sata bilməyimiz mümkün deyil. Risklər çox yüksəkdir. Geofiziki və ya texnoloji xüsusiyyətlərdən başqa, onlar siyasi xarakter də daşıyırlar. Beləliklə, enerji diplomatiyamızın vəzifəsi riskləri qarşılamaq və uğur qazanmaq naminə mürəkkəb və çoxmilyardlı layihələr həyata keçirmək üçün əlverişli siyasi-diplomatik landşaft yaratmaqdır. Geoloji risklərə diplomatik qayğı vacibdir, sadə bir göstərici baxımından: enerji resurslarının hasilatı və satışı ortalama 10-15 ildir. Bundan əlavə, enerji daşıyıcılarının tədarükü və nəql müddətləri orta hesabla 30-40 il, hətta daha çox çəkir. Bu, ciddi bir enerji layihəsi üçün minimal müddətdir. Beləliklə, əgər siz özünüzü yuxarı axın (geoloji) siyasətinə uyğun şəkildə hazırlasanız müvəffəqiyyətin yarısını əldə etmisiniz deməkdir.

Digər faktordan danışan Xarici İşlər naziri bildirib ki, enerji təhlükəsizliyi tələbin təhlükəsizliyinə mütənasibdir - bu, enerji resurslarımızın alıcıları və bazarların bizim xam neft və ya təbii qaza nə qədər ehtiyacı var deməkdir. Yəni, alıcılar kommersiya mallarının təmin edilməsi üçün əlverişli siyasi və tənzimləyici mühit yaratmalıdırlar. Buna görə də daha çox təchiz etmək üçün siyasətçilər bizə stimul və daha güclü ismarıclar verməlidirlər.

Bununla yanaşı, enerji təhlükəsizliyinin uğurları, həmçinin xarici şirkətlərə necə münasibət bəslədiyinizdən asılıdır. Onların uzun illər ərzində hasil və istehsal etməsinə imkan yaradan, eləcə də investor və tərəfdaş hüquqlarını qoruyan bir mühitdə fəaliyyətini təmin etmək üçün maliyyə, sərmayə və hüquqi rejimi necə yaratmağınız çox önəmlidir. Azərbaycan artıq buna nail olub və məhz bu səbəbdən də özünü etibarlılığı ön görülə bilinən, siyasi sabit bir tərəfdaş kimi sübut edib. Beləliklə, enerji layihələrində liberal investisiya və ticarət rejiminin qorunması müvəffəqiyyət üçün vacibdir. Burada xüsusilə qeyd etmək istərdim ki, bu müvəffəqiyyətimiz, həmin dövrdə prezidentimiz olmuş cənab Heydər Əliyevin o zaman bölgədə baş verən qarışıqlıq və Azərbaycanı nə gözləməsinin qeyri-müəyyənliyi dövründə dünya və xarici investisiyalara açılmaq kimi cəsarətli qərarı və liderlik keyfiyyəti ilə bilavasitə bağlı olub.

Daha bir faktor kimi, boru kəmərləri məsələsini qeyd edən nazir bu baxımdan “Cənub qaz dəhlizi”ni vurğulayıb. Bildirib ki, bu strateji boru kəmərləri kompleksi ətrafında proses 2011-ci ildə Azərbaycanla Avropa İttifaqı (Aİ) arasında Birgə Bəyannamənin imzalanması ilə başlayıb. Bu imza siyasi xarakter daşısa da, biz və tərəfdaşlarımız üçün çox şeyi ehtiva edirdi. Bu imza tərəfdaşımız qarşısında təbii qazın Aİ sərhədinə gətirilməsi üçün əlimizdən gələni əsirgəməmək kimi bir öhdəlik götürməyi nəzərdə tutur. Aİ tərəfindən isə bu imza, boru kəmərləri və ya birləşdiricilərin (interkonnektorların) qurulması və ya enerji təchizatı üçün əlçatan olması məqsədilə əlverişli bir mühitin yaradılmasını ehtiva edir. Ancaq inşa etməzdən əvvəl, inşa edərkən və təchiz etməyə başladıqdan sonra bu, xam neft və ya təbii qaz molekulu olsa belə yenə də əmtəədir. Beləliklə, əslində enerjidən danışdıqlarımızın hamısı (geologiya, təhlükəsizlik, boru kəmərləri, təchizat) ticarət məsələsidir. Enerji sahəsində ticarət maraqlarını qorumaq üçün Azərbaycan boru kəmərləri şəbəkəsini qurur və bir sıra müqavilələrə imza atır. Strateji planlaşdırma, tərəfdaşlıq (koalisiya) qurma, risklərin azaldılması baxımından bu iş böyük diplomatik dəstək tələb edir. Bu, riskləri minimuma endirmək və mənfəəti artırmaq üçün siyasi coğrafiyadan necə istifadə edə biləcəyinizdən asılıdır. Biznesdə olduğu kimi, yeni sərmayə qoyarkən və sərmayədən gələn gəlirləri hesabladığın kimi, diplomatiyada da tərəfdaşlarla ağıllı şəkildə investisiya qoyur və siyasi kapitalda yüksək mənfəəti təmin edirsən. Bu, cəmi “sıfır” olan oyun deyil. Bu, əslində hər iki tərəfin qələbə qazanacağı formula olmalıdır. Boru kəmərləri canlı varlıqlar kimidir. Onlar bizə tərəfdaş olan ölkələrlə etibarlı əlaqələr şəraitində yaranır və mövcud olurlar. Beləliklə, boru kəmərləri malların daşınmasının baş tutduğu orta axındır, neft-qaz sənayesi əməliyyatlarının bir mərhələsidir. Enerji ehtiyatlarımızın Azərbaycana ən çox dost münasibəti bəsləyən və dəstəkləyən ölkələrdən keçməklə nəql olunmasını istəyirik. Siyasi baxımdan yanaşsaq, boru kəməri enerji təhlükəsizliyi ilə bağlı danışıqların ən çox intensivləşdiyi yerdir. Amma bu proses yaradıcı və siyasi cəhətdən sağlam olmalıdır. Heç bir boru kəməri layihəsi siyasi cəhətdən sağlam quruluşa malik olmazsa kommersiya baxımından uğurlu ola bilməz. Enerji təhlükəsizliyimizin arxitekturasının başqa bir təməlini, yəni boru kəmərlərinin diversifikasiyasını unutmamalıyıq. Şəbəkə nə qədər geniş olarsa, enerji axınında yaranan problemlərlə üzləşərkən daha az risklər meydana çıxar. Regional enerji arxitekturasının gələcək inkişafı etibarlı interkonnektorlar şəbəkələrinin inkişafından asılıdır. Ancaq çatışmayan və ya lazımınca istifadə olunmayan infrastruktur səbəbindən gecikmələr hələ də mövcuddur. Avropada regional interkonnektorlara az sərmayə qoyulur. Buna görə də biz Avropada İnterkonnektor Yunanıstan-Bolqarıstan, İon-Adriatik Boru Kəməri və İnterkonnektor Türkiyə-Bolqarıstan kimi bəzi interkonnektor infrastrukturlarını “Cənub qaz dəhlizi”nin gələcək bazarlara genişləndirilməsi və təbliği, habelə iqtisadi əməkdaşlığın və enerji təhlükəsizliyinin inkişaf etdirilməsi məqsədini güdən uzunmüddətli sabit və etibarlı qaz təchizatının təmin edilməsi baxımından potensial layihələr hesab edirik.

E.Məmmədyarov diqqətə çatdırıb ki, enerji təhlükəsizliyi həm də bazara çıxışdan ibarətdir. Bu, təkcə enerji mallarını necə istehsal etmək və nəql etməkdən ibarət deyil. Bu, həmçinin bazara çatmaq və girməkdə necə uğurlu olmaqdan ibarətdir. Azərbaycan, əslində, yeganə istehsalçı və ya daşıyıcı deyil, bazarlar axtaran, bazarları öyrənən və bazar imkanlarından istifadə etmək və hətta yaratmaq istəyən fəal təchizatçıdır. Bazarı, qanunvericiliyi və ya onu idarə edən tənzimləmə mexanizmini bilmədən buna nail olmaq çətindir. Bazara çıxış da ticarət məsələsidir. Belə ki, biz edə biləcəyimiz və ya etməli olduğumuz zaman diplomatik yolla siyasi-qanunverici dəstək göstəririk. Enerji diplomatiyamızın vəzifələrindən biri bazarlarda baş verən siyasi prosesləri araşdırmaq, siyasi proqnoz vermək və bazarlarda sabit enerji axını və ya enerji sərmayələrini necə təmin etmək istiqamətində məsləhət verməkdir. Beləliklə, Azərbaycan üçün “Cənub qaz dəhlizi” yalnız bir boru kəməri deyil. Bu, Avropa bazarına çıxışın əldə olunması hədəfidir.

“Sonuncu, bəlkə də ən vacibi isə Azərbaycan üçün enerji təhlükəsizliyinin milli təhlükəsizlik məsələsi olmasıdır. Fəlsəfəmiz, enerji resurslarının milli təhlükəsizliyimizə yüksək əhəmiyyətə malik bir dəyər qatmalı və Azərbaycanın regional sabitlik və inkişaf perspektivlərini bölüşən bütün maraqlı iştirakçılar üçün daha güclü siyasi-iqtisadi əməkdaşlıq mühiti yaratmalı olduğu inancına əsaslanır. Suveren hüquqlar haqqında “Google”da axtarış etsəniz “Dövlətlərin təbii sərvətləri üzərində daimi suverenliyi” haqqında bir çox ədəbiyyat tapa bilərsiniz. Bu, axtarış, istehsal və bu resurslardan istifadə üzrə suverenlik məsələsi barədə çox şeyi deyir. Beləliklə, təbii (enerji) resursları nə vaxt, necə və kiminlə bölüşmək milli təhlükəsizlik məsələsidir. Hər şeydən öncə, milli təhlükəsizlik prioritetdir; biznes və bazarlar isə bundan sonra gəlir.

“Gördüyünüz kimi, enerji diplomatiyasını həll etmək və regionda müxtəlif maraqları nəzərə almaqla balanslaşdırmaqda çətinliklər mövcuddur. Əslində, diplomatlar bu problemləri imkanlara çevirməyə qadir olmalıdırlar.

Təşəbbüskarı olduğumuz və təşviq etdiyimiz layihələr yalnız Azərbaycanın siyasi müstəqilliyini və iqtisadi rifahını təmin etmək üçün mühüm rol oynamayacaq, eyni zamanda, bütövlükdə regionun inkişafına və Avropa ilə Asiya arasında siyasi və ticarət əlaqələrinin genişlənməsinə töhfə verəcəkdir. Onlar Azərbaycanı möhkəmləndirirlər. Onlar tərəfdaşlarımızı möhkəmləndirirlər. Məsələn, “Cənub qaz dəhlizi”ni götürün. Çətiri altında o, bir istehsalçı ölkəni (Azərbaycan), tərəfdaş və Aİ üzvlüyünə namizədlər olan tranzit ölkələri və istehlakçını (Avropa) bir araya gətirir”, - deyə nazir E.Məmmədyarov bildirib.

## İqtisadi müstəqillik - innovativ inkişaf, ən islahatçı ölkə

### İlham Əliyevin dərin sosial-iqtisadi islahatları ilə Azərbaycan hər il beynəlxalq reytinq təşkilatlarının hesabatlarında yeni rekordlar göstərir

***Əvvəli 1-ci səh.***

Əgər, 5 il öncə ABŞ-n “The Heritage Foundation” analitik mərkəzinin hazırladığı “İqtisadi Azadlıq İndeksi - 2014” adlı hesabatda Azərbaycan 100 mümkün xaldan 61,3 xal toplamaqla dünyanın 186 ölkəsi arasında 81-ci yeri tutaraq iqtisadi cəhətdən orta azad ölkələr sırasına daxil olmuşdusa, “İqtisadi Azadlıq İndeksi-2018”də 67-ci, bu il isə 180 ölkə arasında 60-cı yerə yüksəlib.

Bütün bunlar cənab İlham Əliyevin məqsədyönlü, dərin və köklü iqtisadi islahatlarına verilən beynəlxalq qiymətdir. Əksər beynəlxalq reytinq agentlikləri tərəfindən ard-arda ölkə iqtisadiyyatının real vəziyyəti haqqında müsbət mövqe nümayiş etdirməsi təbii ki, təsadüfi deyil. Bütün hesabatlarda Azərbaycanın adının yüksəlməsini müşahidə edirik. Azərbaycanın iqtisadi sahədə qazandığı bu nailiyyətlər, eləcə də ölkədə həyata keçirilən liberal iqtisadi islahatlar, rəqabətə davamlı, innovativ iqtisadi sistemin formalaşdırılması istiqamətində atılan ardıcıl və qətiyyətli addımlar dünyanın aparıcı iqtisadi və maliyyə institutlarının, reytinq agentliklərinin, iqtisadi azadlıq səviyyəsini tədqiq edən fond və mərkəzlərin diqqətindən kənarda qalmır və yüksək qiymətləndirilir.

Bu və digər hesabatlar bir daha təsdiqləyir ki, iqtisadi cəhətdən azad olan Azərbaycanda əlverişli biznes, investisiya mühiti mövcuddur. Bütün bu uğurlar böyük iqtisadi islahatların, düşünülmüş, elmi əsaslara malik inkişaf konsepsiyasının həyata keçirilməsi və siyasi iradə nəticəsində mümkün olub. Bu, həm də Azərbaycanın dünyanın inkişaf etmiş ölkələri səviyyəsinə çatmaq əzmindən xəbər verir. Bu ilin 6 ayının digər makroiqtisadi göstəriciləri də deməyə əsas verir ki, 2019-cu il Azərbaycanın iqtisadi inkişafında mühüm dövr olacaq.

Əminliklə deyə bilərik ki, həyata keçirilən uğurlu iqtisadi islahatlar, reallaşan sosial-iqtisadi layihələr nəticəsində növbəti illərdə açıqlanacaq beynəlxalq hesabatlarda ölkəmizin mövqeyi daha da yaxşılaşacaq. Son bir il ərzində Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkədə uğurlu islahatlar həyata keçirilib. Biznes mühitinin əlverişliliyinin daha da artırılması üçün vergi və gömrük islahatları davam etdirilir, onlayn vahid ixrac ərizəsi, yaşıl dəhliz, elektron məhkəmə, elektron satınalma, tikintidə “bir pəncərə” sistemi, biznesə başlama, elektrik təchizatı şəbəkələrinə çıxış, kreditlərə əlçatanlıq, müqavilələrin icrası və əmlakın qeydiyyatı və digər sahələrdə mühüm işlər görülüb və davam etdirilir. Bu səbəbdən deyə bilərik ki, Azərbaycan növbəti ildə də “ən islahatçı ölkə” statusunu qoruyub saxlaya biləcək.

***Rəşad BAXŞƏLİYEV,***
***“Azərbaycan”***

# İŞİMİZ, GÜZƏRANIMIZ

## “Əsrin müqaviləsi” - 25

# Çoxmərhələli layihə



### Qarşıda duran vəzifələrin yerinə yetirilməsinə Məcburi İşlərin Minimum Proqramından başlandı

Əvvəli 1-ci səh.

Tanınmış beynəlxalq şirkətlərin keçmiş SSRİ məkanında ilk ən böyük sərmayə qoyuluşunun nümunəsi olan HPBS sonralar “Əsrin müqaviləsi” adı ilə məşhurlaşdı.

“Əsrin müqaviləsi”nin imzalanması dünyaya sübut etdi ki, Azərbaycan azad, müstəqil, suveren ölkədir. Ölkəmizin yeni neft strategiyasının müəllifi olan Ümummilli Lider Heydər Əliyevin dediyi kimi: “Biz belə bir addım atmaqla Azərbaycanın dünya üçün, dünya iqtisadiyyatı üçün açıq ölkə olduğunu nümayiş etdiririk. Biz bu müqaviləni imzalamaqla Azərbaycan Respublikasının suveren hüquqlarının bərqərar olduğunu, Azərbaycanın tam müstəqil dövlət olduğunu, xalqımızın öz sərvətlərinə özünün sahib olduğunu dünyaya bir daha nümayiş etdiririk”.

“Azəri-Çıraq-Günəşli” (AÇG) yataqlarının tammiqyaslı işlənməsi üçün 30 il müddətinə bağlanmış sözügedən saziş 1994-cü il dekabrın 12-də Milli Məclis tərəfindən ratifikasiya olunaraq qüvvəyə mindi. Bundan sonra SOCAR və Azərbaycan hökuməti ilə tərəfdaşlıqda işləmək və səhmdarlar adından sazişi həyata keçirmək üçün Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti (ABƏŞ) yaradıldı.

İlkin olaraq ABƏŞ-ə 11 xarici neft şirkəti daxil idi. Bunlar BP, “Amoko”, “Yunokal”, “LUKoyl”, “Statoyl”, “Ekson”, TPAO, “Pennzoyl”, “MakDermott”, “Remko”, DNKL şirkətləri idi. 1999-cu ilin iyun ayından etibarən ABƏŞ-in əməliyyatçılığını BP Amoko öz üzərinə götürdü.

HPBS-nin imzalanmasından ötən 25 il ərzində müxtəlif vaxtlarda AÇG-də iştirak edən şirkətlərin tərkibində müəyyən dəyişikliklər olub. Hazırda AÇG-də iştirak payları belədir: BP (o həm də operatordur, Böyük Britaniya, 30,37 faiz), SOCAR (Azərbaycan, 25 faiz), “Şevron” (ABŞ, 9,57 faiz), İNPEKS (Yaponiya, 9,31 faiz), “Ekvinor” (Norveç, 7,27 faiz), “EksonMobil” (ABŞ, 6,79 faiz), TPAO (Türkiyə, 5,73 faiz), İTOÇU (Yaponiya, 3,65 faiz), ONGC Videş Limited - OVL (Hindistan, 2,31 faiz).

AÇG layihəsinə start verilərkən bu yataqların işlənməsi üç əsas mərhələyə bölündü. Əvvəlcə Məcburi İşlərin Minimum Proqramı (MİMP) yerinə yetirilməli idi. Növbəti mərhələni İlkin Neft Layihəsi (İNL) təşkil edirdi. Daha sonra növbədə Yataqların Tammiqyaslı İşlənməsi (YTİ) dayanırdı.

Xatırladaq ki, 1997-ci ildə İNL çərçivəsində “Çıraq”dan neft hasil olunandan sonra növbəti mərhələ üç fazada işləndi. Birinci olaraq “Mərkəzi Azəri”dən, ikinci fazada “Qərbi Azəri”dən və “Şərqi Azəri”dən, üçüncü fazada “Dərinsulu Günəşli”dən hasilat əldə olundu. Zaman uzaqgörənliklə seçilmiş bu strategiyaya yeni mərhələlər də əlavə etdi. Beləliklə, 2017-ci ildə AÇG-nin işlənmə müddəti 2050-ci ilin əvvəlinədək uzadıldı, başqa sözlə, “Yeni əsrin müqaviləsi” imzalandı.

Qeyd edildiyi kimi, bütün bu uzun yol Məcburi İşlərin Minimum Proqramından başlandı. HPBS-nin şərtlərinə görə, ABƏŞ-in qarşısında dayanan birinci vəzifə karbohidrogen ehtiyatlarının həcminin öyrənilməsi, eləcə də müqavilə sahəsinin ilkin ekoloji vəziyyətinin dəqiq müəyyənləşdirilməsi idi. MİMP bu vəzifəni müvəffəqiyyətlə başa çatdırdı.

Belə ki, proqram çərçivəsində qısa müddətdə genişmiqyaslı işlər görüldü. Xəzər dənizinin Azərbaycan sektorunda üçölçülü seysmik tədqiqatlar aparıldı. Sahə dəqiq tədqiq olundu və burada üç qiymətləndirmə quyusu qazıldı. Sonradan “Dədə Qorqud” adı verilmiş “Kaspmorneft” qazma qurğusu modernləşdirildi. Təchizat gəmiləri, tərsanə, anbar, tikinti-quraşdırma sexi və ofis-yaşayış infrastrukturu yeniləndi, müasirləşdirildi.

MİMP-ə eləcə də əldə olunacaq ilkin nefti ixrac etmək üçün iki variantın müəyyənləşdirilməsi daxil idi. Proqram bu işi də yekunlaşdırdı. “Çıraq-1” platforması tamamilə yenidən qurulmaq üçün qiymətləndirildi. Əsas İxrac Boru Kəməri ilə bağlı məsələlər araşdırıldı.

Beləliklə, MİMP gerçəkləşərək öz növbəsini İNL-yə verdi. İNL-nin qarşısında isə Xəzərin Azərbaycana aid bölməsində dəniz yataqlarının müvəffəqiyyətlə işlənməsinin mümkünlüyünü nümayiş etdirmək vəzifəsi dayanırdı...

***Flora SADIQLI, “Azərbaycan”***

## Azərbaycanda 5,1 milyon nəfər iqtisadi fəal əhalinin 4,9 milyonu işləyir

İyulun 1-nə olan statistikaya görə, Azərbaycanda iqtisadi fəal əhalinin sayı 5 milyon 167,9 min nəfər olub. Onlardan 4 milyon 915,2 min nəfəri məşğul əhalidir.

2018-ci il iyulun 1-i vəziyyəti ilə müqayisədə həm iqtisadi fəal əhalinin sayı, həm də iqtisadiyyatda işləyənlərin sayı artıb. Dövr ərzində iqtisadi fəalların sayı 5 milyon 108,9 min nəfər olub. Onlardan 4 milyon 856,5 min nəfərini məşğul əhali təşkil edib.

Dövlət Statistika Komitəsinin məlumatına görə, 2019-cu il iyunun 1-i vəziyyətinə görə muzdla işləyənlərin sayı 1 milyon 590,7 min, o cümlədən iqtisadiyyatın dövlət sektorunda 898 min, qeyri-dövlət sektorunda isə 692,7 min nəfər təşkil edib. İqtisadiyyatın neft-qaz sektorunda 35 min, qeyri neft-qaz sektorunda isə 1 milyon 555,7 min nəfər çalışıb.

İyul ayının 1-dək məşğulluq xidməti orqanlarında qeydiyyata alınan işsiz şəxslərin sayı da ötən ilin eyni dövrü ilə müqayisədə 19,2 min nəfər artaraq 55,8 min nəfər olub. Onların 34,6 faizi qadınlardan ibarətdir. İşsizlikdən sığorta ödənişinin orta məbləği isə 221,2 manat olub. Bu rəqəm ötən il 287,2 manat təşkil edib.

## Kənd təsərrüfatı məhsullarının istehsalı 13 faiz artıb

Bu ilin yanvar-iyun aylarında Azərbaycanda kənd təsərrüfatının ümumi məhsulunun faktiki qiymətlərlə dəyəri 3 milyard 675,8 milyon manat olub.

Dövlət Statistika Komitəsinin məlumatında ümumi göstəricinin 1.902,2 mln. manatının heyvandarlıq, 1.773,6 mln. manatının isə bitkiçilik məhsullarının payına düşdüyü qeyd edilib.

Qeyd edək ki, hesabat dövründə əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə kənd təsərrüfatı məhsullarının istehsalı 13 faiz, o cümlədən heyvandarlıq məhsulları üzrə 2,9 faiz, bitkiçilik məhsulları üzrə isə 25,6 faiz artıb.

## Bakı Metropoliteni Avropa Gənclər Yay Olimpiya Festivalına hazırdır

Bakıda keçiriləcək XV Avropa Gənclər Yay Olimpiya Festivalına hazırlıq məqsədilə yarışların təşkilat komitəsi ilə müntəzəm əlaqəli fəaliyyət göstərən “Bakı Metropoliteni” QSC-də bununla bağlı bütün müvafiq tədbirlər görülüb.

QSC-dən verilən məlumatda bildirilir ki, şəhərimizdə keçirilən sosial-mədəni kütləvi tədbirlər zamanı Bakı Metropoliteninin nəzərdə tutulmuş əməliyyat planı yarışların əhatə dairəsi, keçiriləcəyi məkanlar, həmçinin qonaqların hərəkət edəcəyi əsas istiqamətlər nəzərə alınmaqla tərtib olunaraq qatarların hərəkətinin təşkili və sərnişin axınının tənzimlənməsinə cavabdeh olan bütün sahələrə müvafiq tapşırıqlar verilib.

Ümumən sərnişinlərin təhlükəsizliyi və rahatlığı məqsədilə metropoliten stansiyaları və elektrik deposu gücləndirilmiş iş rejimi şəraitində fəaliyyət göstərəcək. Bu xüsusda əlavə işçi qüvvəsinin və texniki vasitələrin, o cümlədən zərurət yaranacağı təqdirdə xəttə buraxılmaq üçün ehtiyat qatarların ayrılması nəzərdə tutulub.

## Fermerlərə 23 milyon manatdan çox subsidiya veriləcək

Kənd Təsərrüfatı Nazirliyində Respublika Komissiyasının sədri, Kənd Təsərrüfatı nazirinin müavini İlham Quliyevin sədrliyi ilə kənd təsərrüfatı məhsullarının istehsalçılarına buğda və çəltik əkininə və istifadə etdikləri yanacaq və motor yağlarına görə dövlət büdcəsinin vəsaiti hesabına verilən yardımların, habelə hüquqi və fiziki şəxslər tərəfindən istehsalçılara satılan mineral gübrələrin, biohumusun və pestisidlərin qiymətinə tətbiq edilən güzəştin məbləğinin ödənilməsinin təmin edilməsi üzrə Respublika Komissiyasının növbəti iclası keçirilib.

İclasda kənd təsərrüfatı məhsulları istehsalçılarına hər hektar əkin sahəsinin becərilməsində istifadə etdiyi yanacaq və motor yağlarına görə dövlət büdcəsinin vəsaiti hesabına 50 manat, habelə buğda və çəltik əkinlərinə görə əlavə 40 manat məbləğində yardımın verilməsi və barama istehsalçılarına emal müəssisələrinə təhvil verdikləri yaş baramanın (əyrilən və karapaçax barama istisna olmaqla) hər kiloqramına görə 5 manat məbləğində subsidiyanın verilməsi ilə bağlı Dövlət Aqrar İnkişaf mərkəzlərinin rayon (şəhər) üzrə təqdim etdiyi sənədlərə baxılıb.

Respublika Komissiyası 28 rayon (şəhər) üzrə 105 min 246 istehsalçıya 306 min 261,11 hektar əkin sahəsinin və çoxillik əkmələrin becərilməsində istifadə etdiyi yanacaq və motor yağlarına, habelə buğda və çəltik əkininə görə 21 milyon 112 min 973,1 manat məbləğində və bundan əlavə 29 rayon (şəhər) üzrə 3443 barama istehsalçısına barama emalı və ipək istehsalı müəssisələrinə təhvil verdikləri 406 min 898,45 kiloqram yaş baramanın (əyrilən və karapaçax barama istisna olmaqla) hər kiloqramına görə 5 manat hesabı ilə dövlət büdcəsinin vəsaiti hesabına ümumilikdə 2 milyon 34 min 492,25 manat məbləğində subsidiya ayrılması barədə qərar qəbul edib.

Kənd təsərrüfatı məhsulları istehsalçılarına yardımın ödənilməsi məqsədilə müvafiq sənədlər Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə, “Kapital Bank” ASC-yə və aidiyyəti Dövlət Aqrar İnkişaf mərkəzlərinə göndərilib.

## Kassa çeklərinin verilməsinə nəzarət gücləndirilir

Vergilər Nazirliyi ticarət və iaşə obyektlərində nəzarət-kassa aparatlarından istifadə zamanı kassa çeklərinin təqdim olunması ilə bağlı vergi nəzarəti tədbirlərini gücləndirib.

Nazirlikdən verilən məlumata görə, Bakı şəhərində aparılan nəzarət tədbirləri zamanı ayrı-ayrı ticarət və ictimai iaşə obyektlərində kassa çeklərinin təqdim edilməsi vəziyyəti yoxlanılıb. Vergilər Nazirliyinin əməkdaşları vergi ödəyicilərini kassa çeki təqdim edilməsinin vacibliyi və bu tələblərin pozulması ilə bağlı məsuliyyət tədbirləri haqqında məlumatlandırıblar.

Qeyd edilməlidir ki, istehlakçılar istər alış-veriş zamanı, istər ictimai iaşə obyektlərinin xidmətlərindən istifadə edərkən kassa çekini tələb etməlidirlər. Bu, ilk növbədə onların öz hüquqlarını tələb edə bilməsi, hüquqlarının pozulduğu hallarda mənafelərinin qorunması üçün vacibdir. Hər bir vətəndaş bilməlidir ki, alış-veriş zamanı kassa çekini tələb etməklə alışların rəsmiləşdirilməsində və bununla da vergilərin ödənilməsində dolayı şəkildə iştirak edir. Dövlət büdcəsinə daxil olan vergilər isə büdcə xərcləri vasitəsilə yenidən vətəndaşların rifahına yönəldilməsinə xidmət edir.

Sahibkarlar əhali ilə nağd pul hesablaşmaları aparan zaman nəzarət-kassa aparatlarından istifadə etməli və alış-veriş zamanı alıcılara kassa çeki təqdim etməlidir. Vergi qanunvericiliyi nağd pul hesablaşmalarının aparılması qaydalarının pozulmasına görə məsuliyyət tədbirləri nəzərdə tutur.

Belə ki, nəzarət-kassa aparatları və ya ciddi hesabat blankları tətbiq edilmədən əhali ilə pul hesablaşmalarının aparılmasına, alıcıya təqdim edilməli olan çekin verilməməsinə və ya ödənilmiş məbləğdən aşağı məbləğ göstərilməklə verilməsinə görə vergi ödəyicisinə:

təqvim ili ərzində belə hallara üç və daha çox dəfə yol verildikdə 6000 manat məbləğində maliyyə sanksiyası tətbiq edilir.

Vergi Məcəlləsinin keçid müddəalarına əsasən cari il ərzində belə hala birinci dəfə yol verildikdə vergi orqanı tərəfindən rəsmi (yazılı) xəbərdarlıq edilir. Lakin sahibkarlar buna arxayın olmamalıdırlar. Çünki rəsmi xəbərdarlıq edilmiş sahibkarlar qanunla onlara verilmiş imkanları tükətməklə, vergi orqanının təhlilləri zamanı risk qrupuna aid edilə bilər ki, bu da həmin vergi ödəyicisinin fəaliyyət göstərdiyi təsərrüfat subyektlərində vergi nəzarəti tədbirlərinin intensivliyinin artmasına gətirib çıxara bilər.

Vergilər Nazirliyi vergi ödəyicilərini qanunun tələblərinə tam əməl etməyə, hesablaşmaları nəzarət-kassa aparatları vasitəsilə həyata keçirməyə, alış-veriş zamanı alıcılara kassa çeki təqdim etməyə dəvət edir.

## Sənaye məhəllələri regionlarda inkişafa töhfə verir

Məlum olduğu kimi, Azərbaycanda iqtisadi siyasətin əsasını bu sahənin hərtərəfli inkişafının təmin edilməsi, o cümlədən yüksək texnologiyalar əsasında sənayenin dinamik inkişafı və şaxələndirilməsi təşkil edir. Həyata keçirilən bu siyasət nəticəsində xüsusən son illər regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramları çərçivəsində müxtəlif təyinatlı yüzlərlə sənaye müəssisəsi tikilib istifadəyə verilmiş, minlərlə yeni iş yeri yaradılmışdır.




Ölkədə rəqabətədavamlı sənaye məhsulları istehsalını genişləndirmək üçün hazırda sənaye parklarının yaradılması istiqamətində hərtərəfli tədbirlər görülür. İlk növbədə qabaqcıl beynəlxalq təcrübə öyrənilir və onun ölkəmizdə tətbiqi imkanları araşdırılır. Yeri gəlmişkən qeyd edək ki, sənaye məhəllələrinin yaradılması Prezidentin 2014-cü il 8 oktyabr tarixli fərmanı ilə müəyyən edilmişdir. Fərmana görə, belə məhəllələrin yaradılmasında məqsəd sənaye və xidmət sahələrində fəaliyyət göstərən kiçik və orta sahibkarların inkişafı üçün əlverişli şəraitin təmin edilməsi və əhalinin istehsal və xidmət sahəsində məşğulluğunun artırılmasıdır. Sözügedən fərmanla müəyyən olunmuşdur ki, sənaye məhəlləsi sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi üçün zəruri infrastruktura malik olan, kiçik və orta sahibkarlar tərəfindən məhsul istehsalı və xidmət göstərilməsi üçün istifadə edilən ərazidir.

İstehsal prosesinin təşkilində infrastruktur xərclərinin azaldılması, kooperasiya əlaqələrinin gücləndirilməsi, kiçik və orta sahibkarlığın inkişafı və s. məsələlərin həlli baxımından böyük əhəmiyyət kəsb edən sənaye məhəllələrinin fəaliyyətinin təşkili və tənzimlənməsi dövlət başçısı tərəfindən “Azərbaycan İnvestisiya Şirkəti” ASC-yə həvalə olunmuşdur. Bu istiqamətdə ASC-nin başlıca vəzifələrindən biri məhəllələrdə sənaye istehsalının və müvafiq xidmət sahələrinin təşkili üçün zəruri infrastrukturun və biznes şəraitinin yaradılması, onların sənayeləşmə siyasətinin əsas vasitələrindən birinə çevrilməsindən ibarətdir. Bir vacib məqamı da qeyd edək ki, sənaye məhəlləsi üçün nəzərdə tutulan dövlət mülkiyyətində olan torpaq sahəsi idarəedən təşkilatın daimi istifadəsinə verilir və yalnız sənaye məhəlləsinin fəaliyyəti məqsədi ilə istifadə olunur. Sənaye məhəlləsinin ərazisində torpaqlar sənaye məhəlləsinin iştirakçılarına sahibkarlıq fəaliyyətinin həyata keçirilməsinə dair imzalanmış müqavilənin müddətinə uyğun olaraq icarəyə verilir.

Onu da xatırladaq ki, sənaye məhəllələrinin yaradılması, idarə edilməsi və burada sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi ilə bağlı məsələlərin tənzimlənməsi üçün Nazirlər Kabinetinin 2015-ci il 13 may tarixli qərarı ilə “Sənaye məhəllələri haqqında Nümunəvi Əsasnamə” təsdiq edilmişdir. Əsasnaməyə uyğun olaraq, kiçik və orta sahibkarlığın dəstəklənməsi məqsədilə sənaye məhəllələrində stimullaşdırıcı tədbirlər (“Torpaq icarəsi haqqında” və “İcarə haqqında” qanunların müvafiq maddələrinə əsasən torpaq sahəsinin və tikililərin icarə haqqının aşağı həddə müəyyən edilməsi; güzəştli kreditlərin verilməsi; inzibati prosedurların sadələşdirilməsi; sahibkarlıq fəaliyyətinin səmərəli həyata keçirilməsi üçün xidmətlərin təşkili) tətbiq olunur.

Bir neçə fakt da artıq fəaliyyətə başlamış və bu mərhələdə olan sənaye məhəllələri barədə. Prezidentin 2015-ci il 2 fevral tarixli sərəncamı ilə 10 hektar ərazidə yaradılmış və 2017-ci ilin sentyabrında açılmış Neftçala Sənaye Məhəlləsində avtomobil, balıq yemi, plastik məmulatlar, suvarma sistemləri, polietilen suvarma boruları, kağız stəkanlar və hazır içkilər istehsalı, modul tipli məktəb binalarının quraşdırılması, balıq emalı və konservləşdirilməsi ilə məşğul olan 11 müəssisə fəaliyyət göstərir. Buradakı iştirakçılar istehsal sahələrinin yaradılmasına 50 milyon manata yaxın investisiya yatırıb. Ümumilikdə 550-yə yaxın daimi iş yerinin yaradılması nəzərdə tutulan məhəllədəki “Xəzər” Avtomobil Zavodunda istehsal olunan avtomobillər daxili bazarla yanaşı, bir sıra xarici ölkələrə də ixrac ediləcək.

Dövlət başçısının 2016-cı il 13 iyun tarixli sərəncamına əsasən yaradılmış Masallı Sənaye Məhəlləsində isə tikinti işləri başa çatmışdır. Burada sahibkarlıq fəaliyyətinin səmərəli həyata keçirilməsi üçün zəruri olan xarici və daxili infrastruktur, o cümlədən elektrik və istilik enerjisi, qaz, su, kanalizasiya, rabitə, nəqliyyat, yanğından mühafizə, istehsal təyinatlı, inzibati, sosial və digər infrastruktur obyektləri inşa edilmişdir. Eyni zamanda məhəllədə fəaliyyət göstərən sahibkarlara müxtəlifyönlü dəstək verən, onların hüquqlarının müdafiəsini həyata keçirən ilk regional “KOB Dostu” xidməti fəaliyyətə başlamışdır. Ötən ilin sentyabrında Prezidentin iştirakı ilə açılışı olan Masallı Sənaye Məhəlləsində ilkin olaraq 205 iş yeri olan 5,33 milyon manat dəyərində 10 layihə reallaşdırılmışdır.

Prezidentin 25 iyul 2017-ci il tarixli sərəncamı ilə yaradılmış Hacıqabul Sənaye Məhəlləsində də tikinti işləri yekunlaşmışdır. Sahibkarlar tərəfindən böyük maraq göstərilən məhəllədə ilkin olaraq ümumi dəyəri 61,43 milyon manat olan 7 layihənin icrası nəticəsində 900-dən çox yeni iş yerinin yaradılması nəzərdə tutulur. Dövlət başçısının 27 noyabr 2017-ci il tarixli sərəncamı ilə yaradılan Sabirabad Sənaye Məhəlləsinə gəldikdə hazırda burada tikinti işləri gedir. Bu sənaye məhəlləsində də fəaliyyət göstərmək marağında olan sahibkarların müraciətləri nəticəsində qeydiyyatdan keçmiş 7 layihə üzrə 19.63 milyon manat investisiya qoyuluşu və 300-ə yaxın yeni iş yerinin yaradılması gözlənilir.

***“Azərbaycan”***





# TURİZM



● Təbii sərvətlərimiz







# Şəfası da var, səfası da...

## Bu, Masallıdakı "İsti su" sanatoriyasıdır

**Masallının "İsti su" sanatoriyası adla deyilir. Respublikamızda elə adam tapılmaz ki, adını eşitməmiş olsun. Bu möcüzəli şəfa qaynağı keçən əsrin 60-cı illərində Masallıdan olan həkim-alim, şair-bəstəkar Mirkazım Aslanlı-Sarəng tərəfindən kəşf edilib.**





Sözügedən şəfalı müalicə ocağı Masallı şəhərindən 13 kilometr aralıda, dəniz səviyyəsindən 1650 metr yüksəklikdə, Dəmbəlov dağının döşündə, gah kükrəyən, gah da lal axan Viləş çayının sahilindədir. Yerin çox dərin qatlarından 60 dərəcədə çıxan isti suyun tərkibi orqanizm üçün lazım olan hidrogen-sulfat, natrium-xlor, kalsium, maqnezium-hidrokarbonat maddələri ilə zəngindir. Bu suyun hər litrində 30 milliqram yod da var. Sovetlər zamanında Azərbaycana gələn bir qrup rus alimi Masallı rayonunda olarkən burada "isti su"yun tərkibindəki mineralların insan sağlamlığı üçün çox mühüm olduğunu təsdiq etmişdir. Ta qədimdən isə buranın və ətraf ərazilərin əhalisi xüsusən yay aylarında - qovun yetişəndə "İsti su"ya gələrək primitiv şəkildə olan gölməçələrə girər, öz azar-bezarlarını çıxarardılar. Beləcə, bu suyun xeyri, şəfası haqqında xoş söz-söhbət dillərdə gəzmiş, eldən-elə yayılmışdır. Təsdiq olunmuşdur ki, bu suyun hikməti ilə bir çox xəstəlikləri: revmatizm və onun fəsadlarını, dəri, böyrək və sidik yolları, radikulit, prostat, hipertoniya, qaraciyər və öd yolları, qadın və kişi sonsuzluğu, mədə-bağırsaq, travmatik zədə və s. sağaltmaq mümkündür.

Xüsusi əhəmiyyət kəsb etdiyindən 1971-ci ildə o, Ümumittifaq müalicəvi kurort-sanatoriyası statusu alıb. "İsti su" 1998-ci ildən iş adamı Hacı İldırım Allahyarov tərəfindən özəlləşdirilərək burada genişmiqyaslı tikinti-quruculuq işlərinə başlanmışdır. Müalicə vannaları ilə təchiz edilmiş 3 korpus, qapalı və açıq tipli hovuzlar, həkim, masaj, fizioterapiya otaqları, kotteclər, uşaqlar üçün əyləncə qurğuları, müasir tipli yeməkxana və s. tikilərək istifadəyə verilmişdir. İndi eyni zamanda 160 nəfərin müalicəsi və istirahəti üçün sanatoriyada hər cür şərait mövcuddur. Görülən işlər, həyata keçirilən tədbirlər nəticəsiz qalmır. "İsti su"ya gələnlərin sayı ildən-ilə artır. Yay aylarında burada boş yer tapmaq mümkün deyil. Ayrı-ayrı sahə həmkarlar ittifaqlarının xətti ilə gələnlər də çoxdur.

Ölkəmizdə turizmin inkişafı üçün yaradılan şərait bu müalicə ocağının fəaliyyətində də özünü aydın göstərir. Bir neçə nəfərlə görüşüb təəssüratlarını bölüşməyi xahiş etdik. Rasim Hüseynov əslən Cəlilabadın Göytəpə şəhərindən olsa da, 1986-cı ildən Ukraynanın Odessa şəhərində yaşayır. Əsgərlikdən sonra orada qalıb, ali təhsil alıb, ailə qurub. Hazırda sahibkarlıq fəaliyyəti ilə məşğuldur. 2000-ci ildə ailə həyatı qurub. İki övladı var. Oğlunun da adı Rasimdir - öz adını verib. Qızının adı isə Əminədir. R.Hüseynov deyir ki, hər il buraya - "İsti su" sanatoriyasına gəlib xeyrini görürük. Oynaq, bel ağrılarını burada qoyub gedirik. Sevinirik ki, doğma vətənimizdə belə şəfa ocaqları var. Bəzən biz olanların qədrini bilmirik. Ora-bura getməyə üstünlük veririk. Amma inamla deyə bilərəm ki, "İsti su"yun tayı-bərabəri yoxdur.

Söhbətə Rasimin həyat yoldaşı Svetlana Zelenyak da qoşulur: "Burada hər şey gözəldir. Bir tərəf yamyaşıl meşəli dağdır, aşağı hissədən isə çay axıb gedir. Dəmirağacı mən yalnız burada görmüşəm. Düzdür, Ukraynada da meşəliklər, müxtəlif ağaclar çoxdur. Ancaq bizdə dəmirağacı bitmir. Bu da təbiətin Azərbaycana bəxş etdiyi sərvətdir. İnsanların müalicəsi, istirahəti üçün burada hər cür şərait yaradılıb. Həkimlər, masajçılar, tibb bacıları pasiyentlərə yüksək səviyyədə xidmət göstərirlər. Yeməklərə də söz ola bilməz. Mədəni-kütləvi tədbirlər də öz yerində. Qonaqları vaxtaşırı gəzintilərə aparırlar. O gün Masallı-Yardımlı şose yolunun üstündə yerləşən şəlaləyə getmişdik. Başqa bir mənzərəni seyr etdik. Şəkil çəkdirdik. Bundan öncə Lənkərana səfər etmişdik. Ora da gözəldir".

Sahibkar İ.Allahyarovla çay süfrəsi arxasında oturub işlərin necə getdiyi ilə maraqlanırıq. Turistlər bir-bir yanımızdan ötüb vanna korpuslarına yaxınlaşırlar. Hər biri də salamlaşıb keçir. Sahibkar deyir ki, yeni, Ələt - Astara magistral şose yolu çəkiləndən sonra turistlərin sayı xeyli artıb. Əvvəllər cənub bölgəsinə gedib-gəlmək indikindən çətin idi. Ulu Öndər Heydər Əliyevin "Yol iqtisadiyyat, mədəniyyət, bir sözlə, həyat deməkdir" məşhur kəlamını da sitat gətirir. Söhbət əsnasında öyrənirik ki, buraya hər il Rusiya, Ukrayna, İran, Gürcüstan, Yaponiya, Çin və Avropa ölkələrindən turistlər gəlir. Onların qidalanması əsasən sanatoriyanın yardımçı təsərrüfatında yetişdirilən məhsullar hesabına təmin edilir. Burada mal-qara, toyuq-cücə fermaları, balıqyetişdirmə dambası, arıçılıq təsərrüfatı və s. fəaliyyət göstərir.

Bizdən bir az kənarda stol arxasında oturub çay içə-içə şirin söhbət edən adamlar diqqətimizi cəlb edir. İ.Allahyarovdan ayrılıb onlara yaxınlaşırıq. Haradan gəldiklərini, burada onlara necə xidmət göstərildiyini soruşuruq. Gülərüz qadın deyir: "29 il bundan əvvəl burada olmuşdum. Çox dəyişib. Bakının Xəzər rayonunun Zirə qəsəbəsi sakinləriyik. Bu mənim həyat yoldaşım Gülağa Əliyevdir. 42 il Pirallahıdakı NQÇİ-də işləyib. O biri yeniyetmə nəvəmizdir. Adı Kənandır. Orta məktəbin yuxarı sinfində təhsil alır. Mən, Gülzar Əliyeva, uzun illər rabitə sahəsində çalışmışam. Yoldaşım da, mən də hazırda pensiyaçıyıq. Burada bizə yaxşı baxırlar. Çox sağ olsunlar. Həkim Mirməmməd Ağayevə isə xüsusi təşəkkürümüzü bildirmək istəyirəm. Evə qayıdandan sonra buranın xeyri və adamlar üçün yaradılan şərait barədə dostlara, qohum-qonşulara ətraflı danışacağam. Məsləhət görəcəyəm ki, gəlib Masallı "İsti su"yunda müalicə alsınlar, dincəlsinlər".

Müsahiblərimdən ayrılıb İ.Allahyarovun yanına qayıdıram. Onunla birlikdə Viləş çayının sahilinə enirik. Burada isə tamam başqa mənzərə var. Yuxarı hissədəki sakitlikdən əsər-əlamət yoxdur. Uşaqlar açıq havadakı hovuzda çimir, karuseldə fırlanır, valideynlərinin nəzarəti altında at belində gəzirlər. Bir sözlə, həyat burada elə "İsti su"yun özü kimi qaynayır.

İ.Allahyarov dövlət başçısı İlham Əliyevin sahibkarlar üçün yaratdığı şəraitdən danışır, bu məsələnin Masallı Rayon İcra Hakimiyyəti rəhbərliyinin daim diqqət mərkəzində olduğunu, lazım gəldikdə əməli kömək göstərildiyini vurğulayır.

İnsanlara sağlamlıq bəxş edən "İsti su" sanatoriyasından beləcə xoş təəssüratla ayrılırıq.

***Seyran CAVADOV,***
***"Azərbaycan"***

● Gəzməli, görməli yerlərimiz

# Şamaxı insanlara qucaq açır

## İndi burada kənd turizminə maraq göstərənlər daha çoxdur

**Ölkəmizin turizm potensialına görə seçilən bölgələri arasında Şamaxının öz yeri var. Bu məkan zəngin təbiətinə, biomüxtəlifliyin çoxluğuna, bir sözlə, mükəmməl flora və faunasına görə həmişə maraq dairəsində olub. Məkanın paytaxta ən yaxın məsafədə yerləşən turizm bölgəsi olması da onun cəlbediciliyini artırır. Təsadüfi deyil ki, 2018-ci il ərzində Şamaxı rayonunu ümumilikdə 119 min 300 nəfər turist ziyarət edib. Onlardan 38 min 800 nəfər əcnəbi və 80 min 500 nəfəri isə yerli turistlər olub.**










Azərbaycan Respublikası Turizm Agentliyinin Şamaxı rayonu üzrə nümayəndəsi Taleh Məmmədov bildirdi ki, cari ilin əvvəlindən də bura gələnlər, görməli yerləri ziyarət edənlər az olmayıb. Təsadüfi deyil ki, 2019-cu ilin 4 ayı ərzində Şamaxıya gələn turistlərin sayı 21 min 608 nəfər təşkil edib. Onlardan 1482 nəfər əcnəbi və 20 min 126 nəfəri yerli turistlərdir.

Xarici ölkələrdən Şamaxıya gələn turistlər arasında Rusiya, BƏƏ, Türkiyə, İran, Asiya ölkələri, Fransa, Almaniya və MDB ölkələrinin vətəndaşları üstünlük təşkil edirlər.

Şamaxı rayonu ərazisində ümumilikdə 30 turist obyekti fəaliyyət göstərir. Bunlardan 3-ü beşulduzlu hotel, 15-i istirahət mərkəzi və 12-si restoranlardır. Onlardan əlavə Şamaxıda son illərdə kənd turizmi də çox inkişaf etməkdədir. Bunun nəticəsidir ki, rayona gələn istər yerli, istərsə də xarici turistlərin bir hissəsi kənd evlərində qalmağa üstünlük verirlər.

Turistlərin daha çox xoşladıqları və qalmağa çalışdıqları evlər Çuxuryurd, Nağaraxana, Məlhəm və Dəmirçi kəndlərindədir. Bir məqamı xüsusi olaraq qeyd etmək lazımdır ki, kənd turizmi anlayışı heç də turistlərin ancaq kənd evlərində qalmaları demək deyil. Hər bir evdə qalan turistin yerli kənd təsərrüfatı məhsullarından istifadə etməsini və bu məhsulların necə ərsəyə gəlməsi prosesinin canlı şahidi olmasını da qeyd etmək lazımdır. Bura, eyni zamanda süd sağımı və ağartı məhsullarının hazırlanması, müxtəlif meyvələrin və təbabətdə istifadə olunan bitkilərin toplanması, ev heyvanlarına və quşlarına qulluq və sair daxildir. Artıq bir çox kəndlərin sakinləri kənd turizminin necə maraqlı və faydalı olduğunu bilirlər. Burada həm kəndlinin göstərdiyi xidmət qarşılığında onun maddi durumu yaxşılaşır, həm də regiona gələn turistlər təbii mühitdən çox məmnun qalırlar.

Şamaxı rayonu ilin bütün fəsillərində mülayim iqlimə malikdir. Paralel olaraq digər bölgələrlə müqayisədə rütubətin azlığı da bu yerin əhəmiyyətini artırır. Ona görə yay mövsümündən əlavə olaraq turistlərin qışda da kənd evlərinə maraqları azalmır.

Şamaxıya gələnlərin maraq göstərdiyi və ziyarət etdikləri yerlər də az deyil. Bunların arasında Cümə məscidi, Astrofizika Rəsədxanası, Dəmirçi kəndi turizm komleksi, tarix diyarşunaslıq muzeyi, Heydər Əliyev Mərkəzi, Yeddi Günbəz abidəsi, Şahxəndan türbəsi, Pir Mərdəkan xanəgahı, Gülüstan qalası və Buğurd qalası xüsusilə qeyd edilməlidir.

Nəhayət, Şamaxıda kənd turizmi ilə yerindəcə tanış olmaq şansı qazanırıq. Çuxuryurd kəndindəyik. Burada kənd turizmi üçün mükəmməl infrastrukturun yaradıldığı bir əraziyə daxil oluruq. Obyektin sahibi Bəxtiyar Əliyev deyir ki, əslən Gürcüstandandır. 45 il Bakı şəhərində yaşayıb və müxtəlif rəhbər vəzifələrdə çalışıb. 60 yaşı tamam olduqdan sonra isə kəndə üz tutub və məhz hazırda yaşadığı Çuxuryurdu seçib.

Dediyinə görə, hazırkı ərazidə kiçik torpaq sahəsi götürüb və ailəsi üçün yaşayış yeri tikməyə qərar verib. Öz evi hazır olandan sonra övladlarına da yaxın ərazidə ev tikməyə başlayıb. Bu zaman kənddə turizmin inkişaf etdirilməsinə zərurət yarandığını hiss edib. Beləliklə də, daha böyük həvəslə iş sahəsini genişləndirib. Artıq məqsədinə də nail olub. 4 ailənin eyni zamanda istirahəti üçün tam şəraiti olan ev hazırlayıb. Evlər 3 mənzildən ibarət olmaqla istər yay, istərsə də qış mövsümündə yaşamaq üçün məqbuldur. Hər evdə 5 nəfər qala bilər. Hazırda daha böyük ailələrin - 10 nəfərin eyni zamanda dincəlməsi və uzun müddətə qalması üçün də şərati olan evin tikintisini tamamlamaq üzrədir.

Sahibkar burada dincələn insanların istifadəsi məqsədilə təbii ərzaq məhsulları da yetişdirir. Fərqli meyvə və tərəvəzlər indidən bol məhsulun olacağından xəbər verir. Bundan əlavə yaxınlıqda yerləşən kafe də B.Əliyevə məxsusdur. Turistlər böyük gölün olduğu bu ictimai iaşə obyektinin xidmətindən də bəhrələnə və hətta göldən balıq da tuta bilərlər. Müştəri sarıdan sıxıntısı da yoxdur. Evlər istiliklə təmin edildiyi üçün qışda da müştəriləri olur.

***Əli SƏLİMOV,***
***"Azərbaycan"***

● Xoş təəssürat

# Sumqayıtlı gənclərin "Yay məktəbi"

**Sumqayıt Şəhər İcra Hakimiyyətinin təşəbbüsü, şəhər Gənclər və idman baş idarəsinin təşkilatçılığı ilə sumqayıtlı gənclərin Quba rayonunda "Yay məktəbi"nə start verilib.**







Sumqayıt şəhər Heydər Əliyev Mərkəzində "Yay məktəbi"nin ilk turunun açılış mərasimində bildirilib ki, belə layihələr gənclərin bilik və bacarıqlarının artırılmasına, dostluq əlaqələrinin genişlənməsinə müsbət təsir göstərir. Yaranan əlaqələr gənclər arasında münasibətlərin formalaşmasında mühüm rol oynayır. Sonradan təhsil illərində də davam edən əlaqələr sağlam fikrin inkişafına gətirib çıxarır. "Yay məktəbi"nin iştirakçıları layihənin keçirilməsi təşəbbüsünü dəstəklədiyinə və təşkilində göstərdiyi köməyə görə əlaqədar təşkilatlara minnətdarlığını bildiriblər.

"Yay məktəbi"nin ilk turunda şəhərin müxtəlif sahələrini təmsil edən ictimai fəal gənclər, keçirilən yarış, müsabiqə, festival qalibləri, Sumqayıt "Asan xidmət" və Qızıl Aypara Cəmiyyətinin şəhər bölməsinin üzvləri iştirak edib.

Qubada təşkil olunan "Yay məktəbi"nin iştirakçıları rayonun əsrarəngiz təbiəti ilə tanış olub. "Mənzərə" düşərgəsində isə gənclər arasında intellektual, əyləncəli oyunlar, təlim, yemək və çay fasilələri təşkil edilib. Şahmat, voleybol və futbol yarışları çox böyük maraqla izlənib.

Onu da bildirək ki, növbəti turların proqramı daha da genişləndiriləcək və gənclər Qubanın tarixini yaşadan yerlərə ekskursiya edəcəklər.

***Akif ƏLİYEV,***
***"Azərbaycan"***

● Xəbərlər

# Qəbələ turizmin mərkəzinə çevrilib

**Azərbaycan Turizm Forumunun bu il Qəbələdə keçirilməsi heç də təsadüfi deyil. Əsas məqsəd bölgə turizminin üzərinə işıq salmaqdır. Həmçinin bölgənin forum vasitəsilə yerli və xarici mütəxəssislərlə görüş imkanının yaradılmasıdır.**

"Tourismlab" MMC-nin təşkilatçılığı ilə keçirilən forum bütün turizm mütəxəssislərini, bu sahəyə birbaşa və dolayısı ilə bağlı olan biznes adamlarını bir araya gətirdi.

Yada salmaq lazımdır ki, Azərbaycan Turizm Forumu ilk dəfə 2016-cı ildə keçirilib. Artıq hər il təşkil edilən forumda ölkənin turizm imkanları, gələcək perspektivlər, müasir texnoloji yeniliklər, onların tətbiqi, qanunvericilik və ondan irəli gələn məsələlər müzakirə edilir.

# Azərbaycanın turizm potensialı Özbəkistanda təbliğ olunub

**Özbəkistanın Səmərqənd şəhərində MDB-yə üzv dövlətlərin Turizm Şurasının növbəti iclası çərçivəsində yarmarka keçirilib. Tədbirdə Azərbaycan da daxil olmaqla, ümumilikdə 9 ölkə iştirak edib.**

Yarmarkada Azərbaycanı Dövlət Turizm Agentliyi və turizm sənayesinin nümayəndələri təmsil ediblər.

Azərbaycanın turizm imkanlarının MDB məkanında təbliği məqsədilə burada iştirak edən qonaqlara ölkə haqqında dolğun informasiya verilib, onlara çap-təbliğat materialları paylanılıb.

Yarmarka zamanı Azərbaycanın turizm şirkətləri iştirakçılarla ikitərəfli görüşlər keçirib, gələcəkdə baş tuta biləcək əməkdaşlıq imkanları barədə geniş müzakirələr aparıblar.

● İrsimizi qoruyaq

# Azərbaycan növbəti mötəbər tədbirə evsahibliyi edib




**Yayın isti günlərində turizm sahəsində bir-birindən maraqlı tədbirlər təşkil edilir ki, bu da adıçəkilən sahənin inkişafında mühüm məsələlərdəndir. BMT-nin Ümumdünya Turizm Təşkilatının İcraiyyə Şurasının 110-cu sessiyasının da yaxın günlərdə Bakıda keçirilməsi bu qəbildəndir.**

"İrsimizi qoruyaq: sosial, mədəni və ekoloji davamlılıq" başlığı atlında təşkil edilən sessiyada "Turizm və davamlılıq", "Yerli səviyyədə davamlılığın artırılması", "Turizm və daxiletmə: sosial ölçü", "Turizm və mədəni qoruma" mövzularında tematik müzakirələr keçirilib.

37 ölkə və 5 beynəlxalq təşkilatdan olan, rəsmi dövlət nümayəndələrinin də qatıldığı tədbir bir həftə davam edib.

Tədbirdə Ümumdünya Turizm Təşkilatının baş katibi Zurab Pololikaşvili, təşkilatın İcraiyyə Şurasının sədri Çarls Banda və Azərbaycan Dövlət Turizm Agentliyinin sədri Fuad Nağıyev iştirak və çıxış ediblər.

Fuad Nağıyev son illər Azərbaycanda turizmin inkişafı üçün atılan addımlar, ölkə xaricində aparılan təbliğat kampaniyaları, ölkəmizin yeni turizm brendi, milli-mədəni irsin qorunması üçün görülən tədbirlər barəsində məlumat verib.

Turizmdə etik normaların vacibliyindən danışan F.Nağıyev Azərbaycanın işğal edilmiş torpaqlarında mövcud olmuş mədəni irs nümunələrinin məhvni, beynəlxalq hüquq normalarının işğalçı Ermənistan tərəfindən kobudcasına pozulması faktını sessiya iştirakçılarının diqqətinə çatdırıb.

Agentliyin sədri BMT-nin Ümumdünya Turizm Təşkilatının "Münaqişə zonalarının turizm məkanı kimi və turizmin qanunsuz məqsədlər üçün istifadəsinin qarşısının alınması" qətnamə layihəsi ilə bağlı qərarını yüksək qiymətləndirərək, onların tövsiyə xarakterli deyil, məcburi qüvvədə olmasının məqsədəuyğunluğunu bildirib.

***"Azərbaycan"***

**Jurnalistlik təkcə təhlükəli yox, həm də bir az qəribə, bir az bənzərsiz, bir az da bəxtsiz və içi özünü, çölü özgəni yandıran peşədir. Hətta bir qədər dərinə gedib müasir tələblər baxımından yanaşdıqda, perspektiv peşə sayılan jurnalistliyi bu geniş dünyada, bu milyonlar arasında "tənha" peşə də saymaq mümkündür. Bəlkə də ona görədir ki, jurnalistin səmimi, qəlb dostları əksər vaxt həmkarları olur. Başqaları isə jurnalisti yalnız işi düşəndə, əli qapı arasında qalanda yada salır. Çünki bu təmənnalı zamanada jurnalistin qələmdən savayı sərvəti, yazmaqdan başqa səlahiyyəti yoxdur.**



# Bu da 60

Amma bütün bunların fonunda jurnalistlik həm də bir peşə xəstəliyidir, yoluxdunmu, müalicə edilə bilməyəcəksən, ömrünün sonunacan onun daşıyıcısı olacaqsan. Və nə yaxşı ki, bu gün Azərbaycanda sayı az olsa da, peşəsinin, sözün yaxşı mənasında, xəstəsi olan jurnalistlər var. Onlardan biri də ömür zirvəsinin 60-cı pilləsinə qədəm qoyan, köhnə dillə desək, 37 il əlindən qələm düşməyən Amil Novruzovdur.

Orta yaşlı həmkarlarımız arasında Amil Novruzovu tanımayan az adam olar. Hamı da onu istedadlı jurnalist, etibarlı dost, sabit və prinsipial mövqeyi olan insan kimi qəbul edir. Tam doğru sözümüzdür: Amil Novruzovun birbaşa şəxsiyyəti ilə bağlı olan bu keyfiyyətlər yubiley tərifi deyil, həqiqətdir, daha artığına layiq olduğu həqiqət.

A.Novruzov qarabağlıdır, Ağdamda doğulub boya-başa çatıb, orta məktəbi qurtarıb. Amma onun xarakterində, davranışında əksər həmyerlilərində olduğu kimi dəliqanlılıq, çılğınlıq yoxdur. O, olduqca təmkinli, səbirli, sakit adamdır. Özü də Amili tələbəlik, gənclik illərindən tanıyanlar deyirlər ki, o, həmişə belə olub. Bununla belə, A.Novruzovun həyatında elə anlar, elə hadisələr olub ki, hətta möhkəm xarakteri ona özü kimi qalmağa imkan verməyib, məhvərindən çıxarıb, əsəblərini tarıma, sağlamlığını sınağa çəkib. Söhbət Qarabağın, doğma Ağdamın işğalından gedir.

Ərazilərimiz işğal olunanda Amil Bakıya təzəcə gəlmiş, bugünəcən işlədiyi "Azərbaycan" qəzetində yeni işə düzəlmişdi. Lakin ata-anası, bacı-qardaşı, qohum-əqrəbasının çoxu Ağdamda yaşayırdı. Əksər ağdamlılar kimi, onların da rayonda geniş ev-eşikləri, yaxşı iş-gücləri var idi. İndi isə işğal onların hamısını məhv etmişdi. Cavanlar bu faciənin fəsadlarının öhdəsindən yenə birtəhər gəlirdilər. Amilin valideynləri - atası Şəmsəddin kişi və anası Əminə müəllimə isə ömürlərinin sonunacan köçkünlük həyatı, Ağdamsız ağdamlı olmaları ilə barışa bilmədilər. Onlar keçmiş partiya məktəbinin yataqxanasında məskunlaşmışdılar. İş yerimiz həmin binaya yaxın olduğu üçün Amil hər gün onlara baş çəkirdi. Deyir ki, hər dəfə yataqxanaya onların nisgilini azaltmağa, könüllərini almağa getsə də, özünün qanı qaralıb gəlirdi... Allah heç kimə yurd həsrəti yaşatmasın, xüsusən də qoca yaşında.

Amma gənc Amilin Ermənistanın işğalçılıq siyasətindən çəkdiyi təkcə bu deyildi. Çünki o, Ağdamdan əvvəl Kəlbəcərin işğalının ağrısını yaşamışdı. Bunun isə birbaşa jurnalist taleyi ilə bağlı olan maraqlı tarixçəsi var.

1982-ci ildə indiki BDU-nun Jurnalistika fakültəsini bitirəndən sonra Amil Azərbaycan KP MK-nın bölgüsü ilə Kəlbəcərdə çıxan "Yenilik" qəzetinə göndərilmişdi. Onu da qeyd edək ki, Kəlbəcəri Amilin özü seçmişdi. Tələbə kimi təcrübədə olduğu Kəlbəcərin təbiəti, camaatı, yerli qəzetin kollektivi xoşuna gəlmişdi. Elə həmin vaxt qərar vermişdi ki, jurnalistlik fəaliyyətinə Azərbaycanın bu bənzərsiz yurdunda başlayacaq. Elə də etdi. Hələ üstəlik tələbə yoldaşları Malik Zeynalovun və Validə İsmayılovanın da "saqqızını oğurlayıb" Kəlbəcərə gətirdi və düz 6 il bu romantik gənc jurnalistlər "Yenilik"də yenilik etməklə məşğul oldular. Həmin dövr üçünsə bu vacib keyfiyyət sayılırdı. O üzdən qəzetdə müxbir kimi çalışan Amil çox keçməmişdi ki, redaktor müavini vəzifəsinə irəli çəkilmişdi. Hətta sonralar rayon partiya komitəsi onu redaktor təyin etmək istəmiş, lakin Mərkəzi Komitə 24 yaşlı gənc üçün bu vəzifənin tez olduğunu bildirmişdi.

Bunlar işgüzarlığı, məsuliyyəti, istedadı ilə seçilən A.Novruzov haqqında partiya kabinetlərində verilən qərarlar idi. Bayırda isə 1988-ci il idi. Artıq uzaqlarda Qarabağ və ətraf rayonların işğalı düyməsi basılmışdı. Amil deyir ki, o zaman Kəlbəcərdən Ağdama ailəsinin, valideynlərinin yanına gedib-gəlmək çətinləşmişdi, müəyyən risk tələb edirdi: "Ona görə də Ağdama qayıtmaq qərarı verdim. Rayonda məni Turizm və Səyahətlər Bürosuna direktor təyin etdilər. Bir müddətdən sonra gördüm ki, bu iş mənlik deyil. Əvvəl "Ağdam" qəzetində, sonra isə rayon icra hakimiyyətində işlədim".

Amma dostları, həmkarları Amili mərkəzi qəzetlərdə görmək istəyirdilər. Bildirdilər ki, onun bu həyatda mükəmməl bacardığı bir iş varsa, o da jurnalistlik, qəzetçilikdir.

Amil Novruzov 27 ildir ki, tək fəaliyyətini yox, həmçinin ömrünü "Azərbaycan" qəzetinə bağlayıb. Bağlayıb deyirik ona görə ki, Amil redaksiyamızın divarları arasında ahıl yaşına çatan, gözünün nurunu, canının sağlamlığını qəzetimizə verən əməkdaşlarındandır. 1992-ci ildən bu yana "Azərbaycan"ın elə nömrəsi yoxdur ki, üzərində həm müxbir və şöbə redaktoru, həm də 1998-ci ildən baş redaktorun birinci müavini kimi Amilin zəhməti, əməyi olmasın. O, bu gün baş redaktorun sağ əli kimi əsasən redaktə ilə məşğul olur. Lakin yenilikçiliyi mühafizəkarlığını, ciddiliyi yumşaqlığını, məsuliyyətliliyi liberallığını tamamlayan A.Novruzov bu zaman da verdiyi məsləhətlər və etdiyi redaktələrlə redaksiyamızın gənc jurnalistlərinə peşə dərsi keçir.

Redaksiyamızın yerləşdiyi "Azərbaycan" nəşriyyatının binasında gecələr işığı ən gec sönən bir otaq var. Bu, Əməkdar mədəniyyət işçisi Amil Novruzovun otağıdır. Bəzən gecə saat 12-də, bəzən də daha gec həmin işıq sönür və Amil Prezidentin jurnalistlərə hədiyyə etdiyi binadakı mənzilinə yollanır. Artıq neçə vaxtdır A.Novruzovun bu vaxtsız-vədəsiz iş rejiminə özü kimi ailə üzvləri də öyrəşiblər. O, bu rejimlə 3 övlad böyüdüb, oxutdurub, əllərini çörəyə çatdırıb. İndi şükür, elə bir dərdi, problemi yoxdur. Sözsüz ki, Qarabağdan, Ağdamdan savayı. Amma Amil bu arzusuna da qovuşacağına inanır. İnanır ki, valideynlərinin nisgilli taleyini yaşamayacaq, hətta yaşı 60-ı haqlasa da...

*"Azərbaycan"lılar adından*
***Raqif MƏMMƏDLİ***

## XV Avropa Gənclər Yay Olimpiya Festivalı



# Avropa idmanının nəbzi Bakıda döyünür

*Əvvəli 1-ci səh.*

Bütün bu reallıqlar və XV Avropa Gənclər Yay Olimpiya Festivalı ilə bağlı ölkəmizdə görülən işlər Avropa Olimpiya Komitəsinin turnirin Bakıda keçirilməsi ilə bağlı qərarının düzgün olduğunu bir daha nümayiş etdirir.

Bu gün Azərbaycan növbəti dəfə Avropanın diqqət mərkəzindədir. Paytaxtımız XV Avropa Gənclər Yay Olimpiya Festivalını keçirməklə növbəti dəfə sübut edəcək ki, beynəlxalq yarışların ən uğurlu məkanıdır.

İlk dəfə 1990-cı ildə, Jak Roq tərəfindən irəli sürülən, iki ildən bir (tək illərdə) qışda və yayda keçirilən Avropa Gənclər Olimpiya Festivalı Beynəlxalq Olimpiya Komitəsinin himayəsi ilə Avropa Olimpiya Komitəsi tərəfindən təşkil olunur. Bununla da Asiya Gənclər Oyunları və ya Panamerika Gənclər Oyunlarında sınanmış ənənələrin davam etdirilməsi imkanları yaradılır.

Azərbaycan həmişə olduğu kimi, bu tədbirə də xüsusi maraqla hazırlaşıb. "Bakı-2019"a hazırlıq işlərinin gedişi ilə bağlı Təşkilat Komitəsi fəal iş aparıb. Komitə tərəfindən təşkilati işlər yüksək səviyyədə həyata keçirilib. Festivala hazırlıqla bağlı bütün işlərin beynəlxalq standartlara uyğun şəkildə vaxtında və yüksək keyfiyyətlə aparılması daim diqqət mərkəzində saxlanılıb. Yarışların Əlaqələndirmə Komissiyasının müxtəlif vaxtlarda keçirilən iclasları hazırlıq işlərinin yüksək səviyyədə aparılmasında xüsusi önəm daşıyıb.

Yalnız yerli mütəxəssislərdən ibarət əməliyyat qrupu bütün idman məkanlarında yoxlama işləri aparıb. Artıq hazırlıq işləri başa çatdırılıb. Atletlər Kəndi də tam hazır vəziyyətdədir. 12 yarış məkanı iyulun 21-27-də qapılarını bütün idmansevənlər üçün açacaq.







Festivalda idman yarışlarını izləmək üçün biletlər pulsuzdur. Hər bir şəxs şəxsiyyət vəsiqəsi ilə dörd bilet əldə edə bilər. Bu imtiyaz şagirdlərə də şamil olunur. İdman müəllimləri isə Festivalın Əməliyyat Komitəsinə müraciət edərək daha çox bilet ala bilərlər.

"Bakı-2019" XV Avropa Gənclər Yay Olimpiya Festivalının loqosu olduqca maraqlıdır. "Leo Burnett" brend agentliyinin dizaynerlərindən ibarət yerli heyətin tərtib etdiyi loqo dostluq, ədalətli oyun və tolerantlıq ruhunu gücləndirən müasir, dinamik və çevik brendi əks etdirir. Brendin əsas məqsədi beynəlxalq idman yarışlarına evsahibliyi edən ölkənin və şəhərin qədim mədəniyyətini, tarixini əks etdirmək, eyni zamanda, sabah baş tutacaq idman yarışının bundan əvvəlkilərlə müqayisədə fərqini və milyonlarla insanı bir araya gətirən idman tədbirində "Bax və hiss et!" şüarını nümayiş etdirməkdir.

Bakının irs və mədəniyyətini - od və Qədim Azərbaycan naxışı olan butanı, birlik və dostluq konsepsiyalarını özündə ehtiva edən loqo, eyni zamanda Azərbaycan paytaxtının möhtəşəm müasir memarlıq nümunələrini - Alov Qüllələri və Heydər Əliyev Mərkəzini də təsvir edir. Parlaq rəngləri canlandıran bu loqo yarışlara qatılacaq hər bir iştirakçının müsbət enerjisi və Bakının çoxşaxəli gözəlliyini təsvir etdirən əhatəli çalarlar palitrasından ibarətdir. Bu loqo Azərbaycan mədəniyyətinin təzahürü olmaqla yanaşı, Avropa Olimpiya Hərəkatının əsl ruhunu və bütün dünyanı ilhamlandıran, milyonlarla insanı bir araya gətirməyi bacaran idman mübarizəsini əks etdirir.

Avropa Olimpiya Komitəsinin qərarı ilə ölkəmizdə keçiriləcək XV Avropa Gənclər Yay Olimpiya Festivalı Azərbaycanın, bütövlükdə qitənin idman həyatında əlamətdar bir hadisə olacaqdır. Görülən işlər, həyata keçirilən tədbirlər bir daha təsdiq edir ki, ölkəmiz dostluq və idman yarışı olan bu beynəlxalq tədbirin keçirilməsinə, Avropanı qəbul etməyə tam hazırdır.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# Vətəndaşların qəbulu keçirilib

İyulun 19-da Vergilər naziri Mikayıl Cabbarov Qəbələdə 10 saylı Ərazi Vergilər İdarəsinin inzibati binasında vətəndaşları qəbul edib.

Nazirliyin Media və kommunikasiya mərkəzindən bildirilib ki, qəbulda Qəbələ, İsmayıllı, Oğuz, Zaqatala, Balakən və Qax rayonlarından olan sakinlər iştirak ediblər.

Əsasən yaranmış vergi borcları, vergi orqanlarında işlə təminat, vergi uçotunun aparılması və e-qaimələrin tətbiqi, kənd təsərrüfatı məhsullarının ixracı, vergi qanunvericiliyinin və inzibatçılığının tətbiqi sahəsində qarşılaşdıqları məsələlərlə əlaqədar müraciət olunub.

Vətəndaşların müraciətləri dinlənilib və nazirliyin struktur bölmələrinə aidiyyəti tapşırıqlar verilib.

* * *

Ali Məhkəmənin mətbuat xidmətindən bildiriblər ki, bölgələrdə vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, iyulun 19-da Ali Məhkəmənin sədri Ramiz Rzayev Şəkidə, İnzibati-İqtisadi Kollegiyanın sədri Hikmət Mirzəyev Qaxda, Cinayət Kollegiyasının sədri Şahin Yusifov Zaqatalada vətəndaşların qəbulunu keçiriblər.

Qəbullar zamanı hər bir vətəndaş diqqətlə dinlənilib, müraciətlərdə qaldırılan məsələlərin bir qismi yerində həllini tapıb. Digər müraciətlər üzrə isə Ali Məhkəmənin Aparatının qəbulda iştirak edən aidiyyəti məsul işçilərinə müvafiq tapşırıqlar verilib. Müraciətlərin əksəriyyəti məhkəmələrin fəaliyyəti ilə bağlı olub.

* * *

ASC-dən bildirilib ki, "Azərişıq" ASC-nin sədrinin vəzifəsini icra edən Vüqar Əhmədov iyulun 19-da Zaqatalada 22-yə yaxın vətəndaşı qəbul edib.

Vətəndaşların fərdi müraciətlərini diqqətlə dinləyən "Azərişıq" ASC-nin rəhbərliyi bütün məsələlərin qanunvericiliyə uyğun və operativ şəkildə həll edilməsi üçün cəmiyyətin əlaqədar struktur qurumlarının rəhbərlərinə və rayon elektrik şəbəkələrinin rəislərinə müvafiq göstərişlər verib. Vətəndaşların müraciətlərinin əsas hissəsi yerindəcə həllini tapıb. Araşdırılma tələb edən müraciətlər nəzarətə götürülüb və operativ həlli üçün icraya yönəldilib.

ASC-nin fəaliyyət istiqamətlərinə aid olmayanların isə qeydə alınaraq aidiyyəti üzrə göndəriləcəyi bildirilib. Qeyd olunub ki, birbaşa vətəndaşların iştirakı ilə məsələlərin həlli təmin ediləcək.

Eyni zamanda, "Azərişıq" ASC-nin sədrinin müavini Ramil Yusifov Qaxda (Qax və Şəki sakinləri üçün) 14 vətəndaşın müraciətlərini dinləyib.

* * *

İyulun 19-da İqtisadiyyat nazirinin müavinləri Niyazi Səfərov Qusarda Heydər Əliyev Mərkəzində, Sahib Məmmədov isə Xaçmaz şəhərindəki Quba-Xaçmaz Regional İnkişaf Mərkəzində vətəndaşları qəbul edib.

İqtisadiyyat Nazirliyinin aidiyyəti struktur bölmələrinin nümayəndələrinin iştirakı ilə keçirilmiş qəbullarda vətəndaşlar diqqətlə dinlənilib, qaldırılan məsələlərin böyük əksəriyyəti yerindəcə həll edilib, digər müraciətlərin operativ araşdırılması və qanunvericiliyə uyğun həlli üçün müvafiq tapşırıqlar verilib.

Qəbullara gələn vətəndaşlar sahibkarlıq fəaliyyəti, güzəştli kreditlərin verilməsi, istehsal, emal və xidmət müəssisələrinin yaradılması və yenidən qurulması, kənd təsərrüfatı texnikasının alınmasına, məhsul satışına və ixracına, o cümlədən əlil sahibkarların istehsal etdikləri məhsulların satışına dəstək göstərilməsi, sahibkarların mülkiyyət hüququ, sosial və sair məsələlərlə bağlı müraciət ediblər.

Ümumilikdə qəbullarda 30-dək vətəndaşın müraciəti olub.

***AZƏRTAC***

# AHİK-in sədri "Elm və sülh səfiri" beynəlxalq fəxri adına layiq görülüb





Türkiyənin Ankara şəhərində fəaliyyət göstərən Türk Dünyası Araşdırmaları Beynəlxalq Elmlər Akademiyasının həqiqi üzvü, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı, professor Səttar Möhbalıyev Birləşmiş Millətlər Təşkilatı Beynəlxalq Mükafat Komitəsinin (Cenevrə, İsveçrə) qərarı ilə görkəmli mütəfəkkir Qotfrid Vilhelm Leybnis Medalı ilə təltif edilib və o, "Elm və sülh səfiri" beynəlxalq fəxri adına layiq görülüb.

Bu barədə AZƏRTAC-a Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasından məlumat verilib.

Səttar Möhbalıyev medala və fəxri ada Azərbaycan Respublikasının inkişafındakı xidmətlərinə görə layiq görülüb.

# Paytaxtın bəzi küçə və prospektlərində sarı zolaq qadağası qüvvəyə minəcək

İyulun 20-dən "EYOF Baku 2019" XV Avropa Gənclərinin Yay Olimpiya Festivalının Bakıda keçirilməsi ilə əlaqədar paytaxtın bəzi küçə və prospektlərində sarı zolaq qadağası qüvvəyə minəcək.

Bakı Şəhər Baş Polis İdarəsinin Dövlət Yol Polisi İdarəsinin bölmə rəisi, polis polkovniki Vaqif Əsədov AZƏRTAC-a bildirib ki, festivalın keçirildiyi müddətdə yol polisi gücləndirilmiş iş rejimində xidmət etməklə, yarışların təşkil olunduğu ərazilərdə nəzarəti artıracaq. Təhlükəsizlik tədbirlərinin görülməsi məqsədilə tədbirlərin keçirildiyi ərazilər və onlara bitişik bütün küçə və yollar, prospektlər yol polisi tərəfindən nəzarətə götürüləcək. Tədbirlərin keçirildiyi ərazilər istiqamətində yarış iştirakçılarının rahat, fasiləsiz və təhlükəsiz hərəkətinin təşkil edilməsi məqsədilə sarı rəngli xüsusi işarələnmiş, Olimpiya zolağı kimi tanınan avtomobil zolağı ilə hərəkətə quraşdırılmış kameraların köməyi ilə nəzarət ediləcək. Məlumat üçün bildiririk ki, bu zolaqların çəkildiyi ərazilərdə hərəkət qadağandır yol nişanı da quraşdırılıb. Sürücülər bundan xəbərdardırlar.

V.Əsədov qeyd edib ki, paytaxtın Ziya Bünyadov, Qara Qarayev, Neftçilər, Atatürk, Hənifə Ələsgərova, Azadlıq, Zərifə Əliyeva, Tbilisi, Moskva, Üzeyir Hacıbəyli və digər küçə və prospektlərində çəkilmiş sarı rəngli və xüsusi işarəli avtomobil zolaqlarında digər nəqliyyat vasitələrinin hərəkəti kameralar vasitəsilə aşkarlanırsa, bu, artıq inzibati xəta tərkibi yaradır. Yəni "Yol hərəkəti haqqında" qanunun tələbinə əsasən sürücülərin 40 manat cərimələnməsi üçün elektron qərarlar qəbul edilir. Buna görə də sürücülər və avtomobil sahiblərindən xahiş edilir ki, tədbir başa çatanadək, yəni iyulun 28-dək qeyd olunan zolaqlar üzrə şəxsi avtomobillə hərəkət etməsinlər. Ümumiyyətlə, bu ərəfələrdə Bakı şəhəri ərazisində süni sıxlığın, tıxacların yaranmaması üçün tövsiyə edirik ki, ictimai nəqliyyatdan istifadə edilsin. Eyni zamanda, xahiş edirik ki, tədbirlərin keçirildiyi ərazilər istiqamətində də şəxsi avtomobillərdən deyil, ictimai nəqliyyatdan istifadəyə üstünlük versinlər.

"Sürücülərə və avtomobil sahiblərinə bildiririk ki, bu zolaqlar üzrə hərəkətin 40 manat məbləğində cərimə edilməsi əsas məqsəd deyil. Əsas məqsəd odur ki, bugünədək ölkəmiz bir çox beynəlxalq dərəcəli idman oyunlarına evsahibliyi edib və yüksək göstəricilər əldə edib. Bu göstəricilərin də əldə edilməsi hərəkət iştirakçılarının yol polisi ilə həmrəyliyinin nəticəsində mümkün olub. Bir daha sizi həmrəyliyə çağırırıq", - deyə V.Əsədov bildirib.

# Komandamızın bayraqdarı Vüqar Talıbov olacaq

"Bakı 2019" XV Avropa Gənclər Yay Olimpiya Festivalında Azərbaycan milli komandasının bayraqdarı müəyyənləşib. Gənclər və İdman Nazirliyindən verilən məlumata görə, Azərbaycan Milli Olimpiya Komitəsinin (MOK) nümayəndələri ilə XV Avropa Gənclər Yay Olimpiya Festivalının Əməliyyat Komitəsi üzvlərinin birgə iclası keçirilib. İclasda əsas mövzu Festivalda Azərbaycan milli komandasının bayraqdarının müəyyən edilməsi olub. İştirakçılar komandamızın bayraqdarı kimi 15 yaşlı cüdoçu Vüqar Talıbovun seçilməsinə üstünlük veriblər.



Beləliklə, XV Avropa Gənclər Olimpiya Festivalının iyulun 21-də "Bakı Crystall Hall"da keçiriləcək açılış mərasimində Azərbaycanın bayrağını V.Talıbov daşıyacaq.

V.Talıbov 2003-ci il avqustun 11-də anadan olub. O, 2018-ci il Yeniyetmələrin Yay Olimpiya Oyunlarının, Avropa Kubokunun qalibi, eləcə də Afrika Kubokunun gümüş, Asiya Kubokunun bürünc mükafatçısıdır.


## Bakı Şəhər İcra Hakimiyyətinin Mənzil-Kommunal Təsərrüfatı Departamenti
*açıq tender elan edir*

Tender iştirakçılarına təklif edilir ki, "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq aşağıda göstərilən LOT üzrə tender təkliflərini imzalanıb möhürlənmiş, ikiqat zərflərdə yazılı təqdim etsinlər. İddiaçılar öz tender təkliflərində bütün vergi və rüsumları nəzərə almalıdırlar.

LOT-3 Kommunal təyinatlı maşın və mexanizmlərin alınması

Tender iştirakçılarının ixtisas göstəricilərinin müqayisəsi zamanı "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun 6.2 maddəsində göstərilən meyarlara üstünlük veriləcək. Tenderdə iştirak etmək istəyənlər LOT üçün 100 manat məbləğində iştirak haqqını sifarişçinin bankdakı hesablaşma hesabına köçürdükdən sonra göstərilmiş ünvandan tenderin əsas şərtlər toplusunu ala bilərlər. Tenderin əsas şərtlər toplusu Azərbaycan dilində tərtib edilmişdir.

İştirak haqqı aşağıdakı hesaba köçürülməlidir.

Təşkilat: Bakı Şəhər Mənzil-Kommunal Təsərrüfatı Departamenti
Beynəlxalq Bankın Nərimanov filialı
Kod: 805540
VÖEN: 9900001881
M/h: AZ03NABZ01350100000000002944
SWIFT BIK: IBAZAZ2X
H/h: AZ14IBAZ38060019449887596206
VÖEN: 1500116861

İştirak haqqı heç bir halda qeri qaytarılmır.

Tenderdə iştirak etmək istəyənlər 26.08.2019-cu il saat 17:00-dək aşağıdakı sənədləri Tender komissiyasına təqdim etməlidirlər (tender təklifi və təklifin təminatı 1 faiz bank zəmanəti istisna olmaqla). Göstərilən vaxtdan gec təqdim edilən sənədlər qəbul edilməyəcək.

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *iddiaçının tam adı, hüquqi statusu, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair öhdəliklərin olub-olmaması barədə arayışlar;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanı tərəfindən təsdiq edilmiş maliyyə hesabatları;*
- *analoji işlərin yerinə yetirilməsinə dair iddiaçının potensial imkanları haqqında məlumat;*
- *göstərilən işlərin yerinə yetirilməsi üçün FHN tərəfindən verilmiş razılıq (lisenziya) sənədi;*
- *tender təklifi zərflərin açıldığı gündən sonra azı 30 bank günü müddətində qüvvədə olmalıdır;*
- *tender təklifinə onun ümumi dəyərinin 1 faizi məbləğində bank zəmanəti ilə təminat verilməlidir.*

*Həmin təminat zərflərin açıldığı gündən sonra azı 60 bank günü müddətində qüvvədə olmalıdır.*

İddiaçılar LOT üzrə tender təkliflərini 02.09.2019-cu il saat 17:00-a qədər aşağıda göstərilən ünvana təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

Tender proseduru 03.09.2019-cu il saat 16:00-da Bakı Şəhər Mənzil-Kommunal Təsərrüfatı Departamentinin binasında (Ceyhun Hacıbəyli küç., 220 (keçmiş N.Yusifbəyli küç. 73)) keçiriləcəkdir.

Tenderlə əlaqədar məlumat almaq üçün iştirakçılar əlaqələndirici şəxsə müraciət edə bilərlər.

Əlaqələndirici şəxs: Tamella Nağıyeva, telefon: 465-62-29.

*Tender komissiyası*

## Azərbaycan Respublikası Təhsil Nazirliyi Sizi, Dövlət ümumtəhsil müəssisələrində çalışan təhsilverənlərin əlavə təhsili üzrə təlimlərin satın alınmasına dair açıq tenderdə iştirak etməyə dəvət edir

**Tender 6 LOT üzrə keçirilir:**

| Lotlar | Xidmətlərin adı | Müdavimlərin sayı (nəfər ilə) | Təlimin həcmi (akademik saat ilə) |
|---|---|---|---|
| **I LOT** Riyaziyyat fənnini tədris edən müəllimlər üçün ixtisasartırma təlimləri | Ümumi orta təhsil səviyyəsində riyaziyyat müəllimləri üçün məktəbdaxili qiymətləndirmənin təşkili metodikası üzrə ixtisasartırma təlimi | 2000 | 36 |
| | Ümumi orta və tam orta təhsil səviyyəsində çalışan riyaziyyat müəllimləri üçün riyazi situasiya tapşırıqlarının hazırlanması metodikası üzrə ixtisasartırma təlimi | 5000 | 36 |
| **II LOT** Təbiət fənlərini tədris edən müəllimlər üçün məktəbdaxili qiymətləndirmənin təşkili metodikası üzrə ixtisasartırma təlimləri | Ümumi orta təhsil səviyyəsində fizika müəllimləri üçün məktəbdaxili qiymətləndirmənin təşkili metodikası üzrə ixtisasartırma təlimi | 1000 | 36 |
| | Ümumi orta təhsil səviyyəsində biologiya müəllimləri üçün məktəbdaxili qiymətləndirmənin təşkili metodikası üzrə ixtisasartırma təlimi | 1000 | 36 |
| | Ümumi orta təhsil səviyyəsində coğrafiya müəllimləri üçün məktəbdaxili qiymətləndirmənin təşkili metodikası üzrə ixtisasartırma təlimi | 1000 | 36 |
| **III LOT** Humanitar fənləri tədris edən müəllimlər üçün məktəbdaxili qiymətləndirmənin təşkili metodikası üzrə ixtisasartırma təlimləri | Ümumi orta təhsil səviyyəsində Azərbaycan dili müəllimləri üçün məktəbdaxili qiymətləndirmənin təşkili metodikası üzrə ixtisasartırma təlimi | 2000 | 36 |
| | Ümumi orta təhsil səviyyəsində xarici dil müəllimləri üçün məktəbdaxili qiymətləndirmənin təşkili metodikası üzrə ixtisasartırma təlimi | 1000 | 36 |
| | Ümumi orta təhsil səviyyəsində tarix müəllimləri üçün məktəbdaxili qiymətləndirmənin təşkili metodikası üzrə ixtisasartırma təlimi | 1000 | 36 |
| | Ümumi orta təhsil səviyyəsində yazı işinin təşkili metodikası üzrə ixtisasartırma təlimi | 2125 | 36 |
| **IV LOT** İbtidai təhsil səviyyəsində tədris aparan müəllimlər üçün ixtisasartırma təlimləri | İbtidai təhsil səviyyəsində məktəbdaxili qiymətləndirmənin təşkili metodikası üzrə ixtisasartırma təlimi | 1000 | 36 |
| | İbtidai təhsil səviyyəsində şagirdlərdə oxuyub-anlama bacarıqlarının inkişaf etdirilməsi metodikası üzrə ixtisasartırma təlimi | 2000 | 36 |
| | İbtidai təhsil səviyyəsində sinfin idarəedilməsi üzrə ixtisasartırma təlimi | 2000 | 24 |
| | İbtidai təhsil səviyyəsində musiqi fənninin tədrisi metodikası üzrə ixtisasartırma təlimi | 500 | 36 |
| **V LOT** İbtidai təhsil səviyyəsində dərs deyən müəllimlər üçün Azərbaycan dili və riyaziyyat fənlərinin məzmunu, ehtiyat dərsliklərin tətbiqi və metodikası üzrə ixtisasartırma təlimi. | İbtidai təhsil səviyyəsində dərs deyən müəllimlər üçün Azərbaycan dili və riyaziyyat fənlərinin məzmunu, ehtiyat dərsliklərin tətbiqi və metodikası üzrə ixtisasartırma təlimi | 5000 | 72 |
| **VI LOT** İbtidai sinif müəllimləri üçün məktəbəhazırlıq qruplarında işin təşkili metodikası üzrə fərdi ixtisasartırma təlimləri (mentorluq xidməti) | İbtidai sinif müəllimləri üçün məktəbəhazırlıq qruplarında işin təşkili metodikası üzrə fərdi ixtisasartırma təlimləri (mentorluq xidməti) | 4500 | 18 |

Tenderdə Ermənistan Respublikası və BMT-nin Təhlükəsizlik Şurasının embarqo qoyduğu ölkələr istisna olmaqla bütün digər ölkələrdən olan və Azərbaycan Respublikası Təhsil Nazirliyindən hüquqi, maliyyə və ya təşkilati asılılığı olmayan İddiaçılar iştirak edə bilərlər.

Tender iştirakçılarına təklif edilir ki, https://www.etender.gov.az/ - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar lot üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

İddiaçılar iştirak etmək istədikləri hər bir LOT üzrə **100 (yüz) manat** məbləğində (heç bir halda geri qaytarılmayan) iştirak haqqını ödədikdən sonra tenderin əsas şərtlər toplusunu əldə edirlər. İştirak haqqı aşağıdakı hesaba köçürülməlidir:

**Bakı şəhəri, AZ1008, Xətai prospekti, 49, Azərbaycan Respublikası Təhsil Nazirliyi**
**VÖEN: 1500046011, DXA**
**VÖEN: 1401555071**
**Kod: 210005**
**Müxbir hesabı: AZ41NABZ01360100000000003944**
**SWIFT: CTREAZ22**
**Hesab №: AZ30CTRE00000000000002168501**
**Fond 7 Büdcə gəlirlərinin təsnifatı: 142340**
**Sair daxilolmalar**

İddiaçıların ixtisas uyğunluğu göstəricisi ilə bağlı aşağıdakı sənədi **22 avqust 2019-cu il saat 17:00** tarixinədək Portal vasitəsilə təqdim edilməlidir:

-Müvafiq sahibkarlıq fəaliyyəti növünün həyata keçirilməsi və ya müəyyən hərəkətlərin yerinə yetirilməsi üçün müvafiq lisenziyaya və ya icazəyə malik olmasının təsdiqi kimi İddiaçının ali təhsil və ya əlavə təhsil müəssisəsi olmasının sənədli sübutu.

İddiaçılar **29 avqust 2019-cu il saat 17.00-dək aşağıdakı sənədləri Portal vasitəsilə təqdim etməlidirlər:**

- *iddiaçının tam adı hüquqi statusu, nizamnaməsi qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *bütün təlimlər üzrə metodik vəsaitləri və təlimçilərinin tərcümeyi-halını (CV-ni);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*

Tender "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq keçirilir. Tenderin prosedur qaydaları, təkliflərin təqdim edilməsi və təkliflərin qiymətləndirilməsi və müqayisəsi əsas şərtlər toplusunda öz əksini tapır. Tender iştirakçısı "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanunu, əsas şərtlər toplusunun məzmunu, o cümlədən iştirakçılar üçün təlimatlar, tender sənədlərinin formaları, müqavilə şərtləri, texniki şərtlər və s. ilə tanış olmalıdır. İddiaçının bu sənədlər və tender təklifi haqqında tam təsəvvürü, məlumatı olmaması və əsas şərtlər toplusunun tələblərinə uyğun gəlməyən təklif verməsi onun tender təklifinin kənarlaşdırılması ilə nəticələnə bilər.

İddiaçılar iştirak etdiyi LOT(lar) üzrə yalnız bir tender təklifi verə bilər.

LOT üzrə azı üç təklif təqdim olunduqda həmin LOT üzrə tender proseduru baş tutmuş hesab edilir. Üçdən az təklif daxil olan LOT üzrə tender proseduru baş tutmamış elan edilir, Azərbaycan Respublikası Təhsil Nazirliyi həmin LOT üzrə tenderin davamından imtina edir və təqdim olunan tender təklifləri açılmadan geri qaytarılır.

Tender təklifləri **30 avqust 2019-cu il saat 17:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

QEYD: Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada PORTAL vasitəsilə aparılır. Açılışda iddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

Tender təkliflərini qiymətləndirərkən və müqayisə edərkən əsas şərtlər toplusunda müəyyənləşdirilən keyfiyyət tələblərinə cavab verən yerli mallar (işlər və xidmətlər) üzrə tender təkliflərinin xeyrinə xaricdən idxal olunan eyni malların təklif edilən qiymətinin 20 faizi həcmində güzəştli düzəliş tətbiq edilir.

İddiaçıların tender təklifi, həmçinin tenderlə əlaqədar bütün yazışmalar və sənədlər Azərbaycan dilində həyata keçirilməlidir. Qiymət təklifləri Azərbaycan manatı ilə verilməlidir.

Xidmətlər satınalma müqaviləsinin imzalanması tarixindən **6 ay ərzində** başa çatdırılmalıdır.

Əlavə məlumat üçün tender üzrə əlaqələndirici Gülüstan Cəfərovaya müraciət etmək olar. Əlaqə məlumatları:
Ünvan: Bakı şəhəri, Xətai prospekti, 49
Telefon: 599-11-55 (daxili 5296)
e-mail: **gulustan.jafarova@edu.gov.az**

***Tender komissiyası***

# 230-dan çox insan "Azercell"in ödənişsiz göz müayinələrindən yararlanıb

Ən son texnologiyaların tətbiqi ilə insan həyatının keyfiyyətini artırmağı hədəfləyən "Azercell" Telekom ödənişsiz göz müayinələrinin təşkilini davam etdirir.

Belə ki, cari ilin aprel-iyun ayları ərzində 230-dan çox insan "Azercell"in "Mobil Göz Klinikası"nın oftalmoloji müayinələrindən keçmişdir. 8 illik fəaliyyəti dövründə müasir avadanlıqla təchiz olunmuş klinika Bakı da daxil olmaqla, Azərbaycanın əksər rayonlarında yerləşən uşaq və ahıllar evlərinə, internat məktəblərinə səfərlər etmiş, 7500-dən çox insana xidmət göstərmişdir. Bu müayinələr zamanı ehtiyac yaranan hallarda müalicələr təyin edilmiş, optik eynəklər paylanmışdır. Valideyn himayəsindən məhrum olan uşaqlarda göz xəstəliklərinin müayinəsinin təşkilini və profilaktikasının aparılmasını təmin etmək məqsədilə yaradılan "Mobil Göz Klinikası"nın xidmətlərindən eyni zamanda ahıllar, aztəminatlı ailələr və məcburi köçkünlər də yararlanır.

Qeyd edək ki, layihə çərçivəsində bütün müayinə və müalicə tədbirləri "Azercell"in dəstəyi ilə "Xəzər Qayğıkeşlik Layihəsi" İctimai Birliyi tərəfindən həyata keçirilir.

## "Bakı Metropoliteni" QSC müxtəlif növ kondisioner və məişət avadanlıqlarının satın alınması üzrə *açıq tender elan edir*

**Tender 1 (bir) LOT üzrə keçirilir:**

Tender iştirakçılarına təklif edilir ki, https://www.etender.gov.az/ - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**LOT-1 Müxtəlif növ kondisioner və məişət avadanlıqlarının satın alınması**
**İştirak haqqı - 250 manat**
Hesabın adı: "BAKI METROPOLITENI" QSC
Hesab nömrəsi (IBAN): AZ98AZRT38050019440010268002 AZN
VÖEN: 1402871431
Bankın adı: AZƏR TÜRK BANK ASC (Mərkəz Filialı)
Kod: 501361
VÖEN: 9900006111
Müxbir hesabı: AZ02NABZ01350100000000022944
SWIFT BIK: AZRTAZ22

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**
İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində, tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər.

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **19 avqust 2019-cu il saat 17:00-a** qədər və tender təklifi ilə bank təminatı sənədlərini **27 avqust 2019-cu il saat 16:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər.

İddiaçıların təklifləri **28 avqust 2019-cu il saat 16:00-da** açılacaqdır.

İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

QEYD: Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin Dövlət Radiotezliklər İdarəsi tərəfindən "Azərbaycan" qəzetinin 23 aprel və 07 may 2019-cu il tarixli sayında elan edilmiş Yeni katriclərin alınması və dolumu, printerlərə texniki xidmətin satın alınması prosedurunun qalibi "Caspian Supplies AZE" MMC müəyyən edilmişdir.

Dövlət Radiotezliklər İdarəsi və "Caspian Supplies AZE" MMC arasında 19.07.2019-cu il tarixdə satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin Dövlət Radiotezliklər İdarəsi tərəfindən "Azərbaycan" qəzetinin 23 aprel və 07 may 2019-cu il tarixli sayında elan edilmiş Nəqliyyat vasitələrinə illik servis xidmətinin satın alınması prosedurunun qalibi "ŞƏRQ MOTORS" MMC müəyyən edilmişdir.

Dövlət Radiotezliklər İdarəsi və "ŞƏRQ MOTORS" MMC arasında 19.07.2019-cu il tarixdə satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin Dövlət Radiotezliklər İdarəsi tərəfindən "Azərbaycan" qəzetinin 19.06.2019 və 03.07.2019-cu il tarixli nömrələrində dərc edilmiş "Xüsusi loqolu markaların, kitabların və digər tanıtım məhsullarının satın alınması" üzrə açıq tenderin davamından imtina edilir.

***Tender komissiyası***

# Dənizdə batmaq təhlükəsi ilə üzləşən iki nəfər xilas edilib





İyulun 15-də saat 11:55 radələrində Dövlət Sərhəd Xidmətinin (DSX) Sahil Mühafizəsinin "Vel" sahil nəzarəti bölməsinə 2 nəfər heyət üzvü olan "VE-396" bort nömrəli "Yamaha-48" tipli qayığın mühərrikində yaranmış nasazlıq səbəbindən dənizdə batmaq təhlükəsi ilə üzləşməsi barədə məlumat daxil olub.

DSX-nin mətbuat mərkəzindən bildiriblər ki, qayıqdakı şəxslərin xilas edilməsi məqsədilə dövlət sərhədinin mühafizəsində olan Sahil Mühafizəsinin "Tufan" tipli sərhəd gözətçi gəmisi hadisə baş vermiş koordinatlara istiqamət götürüb. Saat 12:10 radələrində Lənkəran rayonunun Vel kəndindən 2 mil məsafədə qayıq aşkarlanıb. Heyət üzvləri saat 12:35 radələrində xilas edilərək sahilə çıxarılıblar.

***"Azərbaycan"***

# Əfqanıstanda taliblərlə qanlı döyüş

Dünən Əfqanıstanın qərbində yerləşən Badgis əyalətində azı 21 xüsusi təyinatlı "Taliban" hərəkatının silahlıları ilə döyüşdə həlak olmuşdur. Bu barədə əyalətin qubernatoru Abdulqafur Məlikzəy jurnalistlərə məlumat vermişdir. O bildirmişdir ki, xüsusi təyinatlılar Ab Kəməri qəzasına yollanarkən taliblərin qurduğu pusquya düşmüşlər.

Döyüş nəticəsində 20 talib məhv edilmişdir.

Eyni zamanda Badgis əyaləti şurasının deputatı Məhəmmədnəsir Nəzəri 34 xüsusi təyinatlının həlak olduğu barədə məlumat vermişdir. "Taliban" hərəkatı isə 39 xüsusi təyinatlının öldürüldüyünü iddia edir.

## Beynəlxalq aləm

# ABŞ İranın pilotsuz təyyarəsini vurdu



ABŞ Hərbi Dəniz Qüvvələrinin "USS Boxer" desant gəmisi Hörmüz boğazı üzərində uçan İrana məxsus pilotsuz təyyarəni vurmuşdur. Bu barədə ABŞ Prezidenti Donald Tramp Ağ evdə bəyanatla çıxış edərkən məlumat vermişdir.

Ağ evin başçısı bildirmişdir ki, uçuş aparatı Amerika gəmisinə və onun heyət üzvlərinə təhlükə yaradırdı.

Amerika liderinin dediyinə görə, pilotsuz aparat gəmiyə təxminən 900 metr yaxınlaşdıqdan və xəbərdarlıqlara məhəl qoymadıqdan sonra vurulmuşdur.

İran dronun itkisi barədə məlumatsızdır. Bu haqda ABŞ Prezidenti Donald Trampın bəyanatını şərh edərkən İranın Xarici İşlər naziri Cavad Zərif jurnalistlərə məlumat vermişdir. "Bizim uçuş təyyarəsini itirməyimiz barədə heç bir məlumatımız yoxdur", - deyə diplomat bildirmişdir.

# Türkiyədə miqrantların mikroavtobusu dərəyə düşüb

Türkiyənin Van vilayətində qeyri-leqal miqrantları daşıyan mikroavtobus qəzaya uğramışdır. Nəticədə 16 nəfər həlak olmuş, 51 nəfər xəsarət almışdır.

Yol-nəqliyyat hadisəsi İpəkyolu rayonu yaxınlığında Van-Ozalp yolunda baş vermişdir. Sürücü idarəetməni itirmiş və mikroavtobus dərəyə aşmışdır. Hadisə yerinə təcili yardım briqadaları və xilasedicilər gəlmişdir. Yaralılar yaxınlıqdakı xəstəxanalara çatdırılmışdır.

Van əyalətinin qubernatoru Məhmət Emin Bilməzin dediyinə görə, bəzi yaralıların vəziyyəti ağırdır. Onların arasında qadınlar və uşaqlar var. 18 nəfər üçün hesablanmış mikroavtobusda 67 adam olmuşdur.

# Meksikada 15 turist həlak oldu

Meksikada turistləri daşıyan avtobus ağaca çırpılaraq çevrilmişdir. Hadisə yerində 15 nəfər həlak olmuş, 21 nəfər, o cümlədən bir neçə uşaq yaralanmışdır. Yaralılar xəstəxanalara göndərilmişdir. Bu barədə "El Heraldo" qəzeti xəbər verir.

Məlumata görə, hadisə Nayarit ştatında baş vermişdir. Avtobus Aquaskalyeyentes şəhərindən Quyabitos çimərlik kurortuna gedirdi. Sürücünün sükan arxasında yuxuladığı güman edilir. O, həbs olunmuşdur.

# Bosniyada müharibənin daha 86 qurbanı torpağa tapşırılacaq

Bu gün 1992-1995-ci illərdə Bosniya və Herseqovinanın şimalındakı Priyedor şəhərində və onun ətrafında serblər tərəfindən xüsusi qəddarlıqla öldürülmüş daha 86 bosniyalının cəsədi torpağa tapşırılacaq. Bu barədə "Anadolu" agentliyi xəbər verir.

Koricani qayalıqları yaxınlığındakı kütləvi məzarlıqda aşkar olunmuş cəsədlər identifikasiya edilmişdir.

1992-ci ilin martında keçmiş Yuqoslaviyanın Dövlət Təhlükəsizliyi İdarəsinin rəisi, milliyyətcə serb olan Simo Drljaça Priyedor polisinin serb mənşəli 1775 əməkdaşına silah paylamaq əmri vermişdi. Aprelin 29-da serb qoşunları şəhəri ələ keçirmişdilər. Mayın 23-də Priyedorun ətraf rayonları hücuma məruz qalmışdır. Nəticədə 3176 mülki şəxs, o cümlədən 102 uşaq həlak olmuşdur.

## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi Qarabağ müharibəsi əlilləri və şəhid ailələri üçün mənzillərin satın alınması ilə əlaqədar *açıq tenderə dəvət edir*

Qarabağ müharibəsi əlilləri və şəhid ailələri üçün Bakı şəhəri və ətrafında bir, iki və üçotaqlı, Gəncə şəhəri, Mingəçevir şəhəri və Göygöl rayonunda bir, iki və üçotaqlı, Lənkəran şəhəri, Lerik şəhəri və Astara rayonunda iki və üçotaqlı, Qəbələ şəhəri, Göyçay şəhəri və İsmayıllı rayonunda iki və üçotaqlı, Şirvan şəhəri və Hacıqabul rayonunda iki və üçotaqlı olmaqla ümumilikdə 369 mənzilin satın alınması.

Təklif olunan mənzillər təmirli olmalı, kommunikasiya xətləri mövcud olmalı və kommunal borcları olmamalı və mənzillərin Əmlak Məsələləri Dövlət Komitəsi tərəfindən verilmiş çıxarışları olmalıdır.

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Yasamal rayonu, Salatın Əsgərova küçəsi, 85 (əlaqələndirici şəxs: Tender komissiyası, (012) 596-44-09) ünvanından ala bilərlər.

**İştirak haqqı: 50,00 (əlli) manat**

**Satınalan təşkilat: Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi**
**VÖEN: 1700093011**
**Bank: Dövlət Xəzinədarlığı Agentliyi**
**Kod: 210005**
**M/h: AZ41NABZ01360100000000003944**
**VÖEN: 1401555071**
**SWIFT: CTREAZ22**
**H/h: AZ80CTRE00000000000002138501**

**Büdcə gəlirlərinin təsnifat kodu: 142340**
**Büdcə səviyyəsinin kodu: 7**

İştirak haqqı heç bir halda geri qaytarılmır.
İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (tender təklifinin təminatının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;*
- *digər sənədlər.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan sənədlər Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və tender təklifinin təminatı istisna olmaqla) **24 avqust 2019-cu il saat 17:00-dək,** tender təklifi və tender təklifinin təminatını isə möhürlənmiş ikiqat zərfdə **04 sentyabr 2019-cu il saat 17:00-dək Bakı şəhəri, Salatın Əsgərova küçəsi, 85** ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **05 sentyabr 2019-cu il saat 15:00-da** Bakı şəhəri, Salatın Əsgərova küçəsi, 85 ünvanında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan





AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 8903
Sifariş 2365
Qiyməti 40 qəpik